Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

3
MAY
2019-cu il

№ 79 (3977)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# 64 MİLYARD DOLLARDAN ERMƏNİSTAN BİR DOLLAR DA PAY ALA BİLMƏDİ - AZƏRBAYCANIN SAYƏSİNDƏ...

■ səh. 8 ■

Azərbaycan diplomatiyasından Ermənistanın Uruqvay ssenarilərini iflas həddinə gətirən gediş...

■ səh. 5 ■

"Həm Rusiyanın, həm də Qərbin dəstəyini itirirk - bu, Ermənistana müsbət heç nə vəd etmir..."

■ səh. 9 ■

Bolqarlar qazımızdan da istifadə etməyə başlayır - bu ölkə erməni canilərə qırmızı işıq yandırmaqda da davam edəcəkmi...

■ səh. 4 ■

Azərbaycan dünyanın 20 turizm məkanından birinə çevrilmək imkanlarında...

■ səh. 11 ■

Türkdilli ölkələrin yaxınlaşmasında İpək Yolunun rolu - Bakıda ümumdünya müzakirələrinin maraqlı mövzuları var

■ səh. 7 ■

Radikalların Bakıda səmərəsiz mitinqlər taktikasından hələ bezmədiklərinə daha bir sübut...

■ səh. 10 ■

Kürdəmirin Sığırlı kəndini sosial məkanda daha da məşhurlaşdıran qalmaqal...

■ səh. 12 ■

Teleefirdə cəmiyyəti təhqir etdikləri bəs etmədi, üstəlik, məhkəməyə də saygısızlıq etdilər...

■ səh. 14 ■



■ səh. 3 ■

*«Bəzi dəlisov liderlər dünyanı fəlakətə aparır...»*

## Umumdünya Forumunda Bakı və Azərbaycan Prezidenti dəfələrlə nümunə kimi göstərildi



Elçin Quliyevin ordusu Ermənistanla sərhədlərimizin keşiyində və ilk sınaq...

■ səh. 4 ■

Pambıq sahələrinin azalması kənd təsərrüfatının problemlərindən biri kimi...

■ səh. 13 ■



Bakıda güzgülü avtomobil nömrələri - piyada vurub qaçan oliqarxlar və onların «gül balaları»...

■ səh. 12 ■

■ səh. 6 ■

Paşinyan ABŞ-dakı Qarabağ danışıqlarında da davakarlıq göstərsə... bu ölkədən yardım gözləntisi birdəfəlik kəsilə bilər...



■ səh. 10 ■

ABŞ-ın İran neftinə tam ixrac qadağası işə düşdü - ilk gün nələr ortaya çıxdı...



■ səh. 14 ■

Aşıq Ələsgər Muzeyinin "əsir edilmiş" eksponatları - Mədəniyyət Nazirliyindən giley-güzar...



■ səh. 13 ■

Bürokratik əngəllər Azərbaycana investisiya axınına ən böyük maneə kimi...



■ səh. 15 ■

AMEA institutları elmdən nə vaxt pul qazanacaq?



# Prezident İlham Əliyev Ümumdünya Forumu çərçivəsində bir sıra beynəlxalq rəsmi şəxsləri də qəbul etdi

**Prezident İlham Əliyev mayın 2-də BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Angel Moratinosu qəbul edib və V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirakına və ölkəmiz haqqında söylədiyi xoş sözlərə görə təşəkkürünü bildirib.**

Dövlət başçısı Azərbaycanın BMT-nin Sivilizasiyalar Alyansı ilə yaxından əməkdaşlıq etdiyini vurğulayıb.

2007-ci ildə ATƏT-in fəaliyyətdəki sədri olarkən Azərbaycan Prezidenti ilə ilk görüşdən danışan qonaq həmin söhbət zamanı Azərbaycanın dövlət başçısının söylədiyi fikirləri bu gün də xatırladığını deyib. Forumun təşkilinə görə minnətdarlığını bildirən Migel Angel Moratinos Bakının dünyada dialoq mərkəzi kimi tanındığını, "Bakı prosesi"nin önəmli bir platformaya çevrildiyini və zamanında irəli sürülmüş təşəbbüs olduğunu vurğulayaraq bildirib ki, bu prosesin coğrafiyasının genişləndirilməsi və Azərbaycanın multikulturalizm ənənələrinin təşviqi böyük əhəmiyyət daşıyır.

Söhbət zamanı Azərbaycanın BMT-nin Sivilizasiyalar Alyansına verdiyi dəstək yüksək qiymətləndirilib.

Prezident İlham Əliyev mayın 2-də İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Osaymini də qəbul edib.

İƏT Baş katibi V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyətini qeyd edərək, "Bakı prosesi"nin artıq təsisatlanmış bir mexanizmə çevrildiyini deyib.

Prezident İlham Əliyev mayın 2-də Avropa Şurası Baş katibinin müavini Qabriella Battaini-Draqonini də qəbul edib.

Avropa Şurası Baş katibinin müavini Azərbaycanın Avropa Şurasının layiqli üzvü olduğunu bildirərək, "Bakı Prosesi"ni Avropa Şurası üçün də uğurlu platforma adlandırıb.

Prezident İlham Əliyev Azərbaycanın həm Avropa Şurasına, həm də İslam Əməkdaşlıq Təşkilatına üzv olduğunu qeyd edərək, ölkəmizin "Bakı Prosesi" vasitəsilə mədəniyyətlərarası və sivilizasiyalararası dialoqu təşviq etdiyini bildirib. Hazırkı şəraitdə "Bakı Prosesi"nin coğrafiyasının genişləndirilməsinin zəruriliyini qeyd edən dövlət başçısı Azərbaycanın, sivilizasiyalararası dialoqu təşviq etməklə bərabər, sivilizasiyalardaxili dialoqu da dəstəklədiyini deyib.

## Bakıdakı Səudiyyə Səfirliyi uydurma "erməni genosidinə" ABŞ-da ölkəsinin heç bir dəstək vermədiyini açıqladı

**Səudiyyə Ərəbistanı Krallığının Azərbaycandakı Səfirliyi açıqlama yayıb.**

Səfirlikdən "Trend"ə verilən məlumata görə, son zamanlar bəzi sosial şəbəkə və kütləvi informasiya vasitələrində belə bir məlumat yayılıb ki, guya Səudiyyə Ərəbistanı Krallığının Amerika Birləşmiş Ştatlarındakı səfiri Osmanlı dövləti zamanında "erməni soyqırımı"nın tanınması ilə bağlı ABŞ Konqresindəki qətnamə layihəsinə Krallığın dəstək verdiyini bildirib. Səfirlik bildirir ki, qardaş Azərbaycan Respublikasını maraqlandıran məsələlərlə bağlı Krallığın mövqeyi dəyişməzdir. Bütün bu deyilənlər həqiqətə uyğun deyil və xanım səfir indiyə kimi Konqresin heç bir üzvü ilə görüşməyib, bu məsələ ilə bağlı heç bir açıqlama verməyib: "Qeyd olunan saytlar və qəzetlər Krallıq və onun mövqeyi barədə yanlış məlumat yaymaqla Səudiyyə Ərəbistanı Krallığı ilə müsəlman dövlətlərin arasını vurmağa çalışaraq, öz şəxsi maraq və məqsədləri üçün onları qızışdırmaq və parçalamaq niyyəti güdürlər".

## Mətbuat Şurası Ümumdünya Mətbuat Azadlığı Gününü qeyd edəcək

Azərbaycan Mətbuat Şurası
Azerbaijan Press Council

**Azərbaycan Mətbuat Şurasının təşəbbüsü ilə 3 may Ümumdünya Mətbuat Azadlığı Gününə həsr olunmuş "Mətbuat azadlığı: başəri mahiyyət və Azərbaycan reallıqları" mövzusunda konfrans keçiriləcək.**

Tədbir mayın 3-ü saat 10.00-da Beynəlxalq Mətbuat Mərkəzində işinə başlayacaq.

Toplantıda Azərbaycanda və dünyada söz və ifadə azadlığı sahəsindəki vəziyyət, bu müstəvidə nəzərəçarpan meyllər müzakirə olunacaq, 3 may Ümumdünya Mətbuat Azadlığı Gününün qeyd edilməsini zəruriləşdirən məqamlar barədə söhbət açılacaq. Konfransda kütləvi informasiya vasitələrinin rəhbərləri, ictimaiyyət nümayəndələri və dövlət rəsmiləri iştirak edəcək.

Bütün KİV təmsilçiləri konfransa dəvətlidir.

# Ramil Usubov Monteneqronun daxili işlər nazirini qəbul edib

**Mayın 2-də Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Ramil Usubov ölkəmizdə işgüzar səfərdə olan Monteneqronun daxili işlər naziri Mevludin Nuhodjiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



Qonaqları salamlayan nazir dövlət başçılarımızın, habelə yüksək səviyyəli nümayəndə heyətlərinin, eləcə də vətəndaşlarımızın qarşılıqlı səfər və ziyarətlərinin Azərbaycanla Monteneqro arasında olan sıx əməkdaşlığın və qarşılıqlı etimadın daha da genişləndirilməsinə təkan verdiyini məmnunluqla qeyd edib. Sonra nazir DİN-in funksional vəzifələri və fəaliyyət istiqamətləri, mövcud kriminogen durum, daxili işlər orqanlarında həyata keçirilən islahatlar, insan hüquqlarının qorunması, vətəndaş məmnunluğunun təmin edilməsi sahəsində görülən işlər barədə həmkarına qısa məlumat verib.

Səmimi qəbula və yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən Monteneqronun Daxili İşlər naziri Mevludin Nuhodjiç dövlətlərimiz arasındakı əlaqələrin son illər bütün sahələrdə inkişaf etməsindən, Azərbaycanda yaradılmış sabitlik və əmin-amanlıqdan, respublikamızın, onun paytaxtının dünyanın ən təhlükəsiz dövlətlərindən və şəhərlərindən biri olmasından, burada həyata keçirilən geniş quruculuq işlərindən məmnunluğunu ifadə edib, yaxın dost və tərəfdaş saydıqları Azərbaycan Daxili İşlər Nazirliyi ilə əməkdaşlığın genişləndirilməsi üçün səylərini əsirgəməyəcəklərini vurğulayıb. Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər də müzakirə olunub.

## İran Azərbaycan və Rusiya ilə birgə dəmir yolu şirkətləri yaratmaq istəyir

**İran Azərbaycan və Rusiya ilə birgə dəmir yolu şirkətləri yaratmaq istəyir. "Trend"in məlumatına görə, bunu İranın Dəmir Yolu Şirkətinin ticarət və istifadə üzrə direktor müavini Babək Əhmədi deyib.**



B.Əhmədinin sözlərinə görə, bununla Rusiyanın qonşu ölkələrə məhsul tranzitinin artmasına şərait yaranacaq. Direktor müavini əlavə edib ki, İranın dəmir yolu tranzitindən əldə etdiyi gəlir 77% artıb. Şirkət rəsmisinin sözlərinə görə, xarici ticarətdə beynəlxalq yüklərin daşınması orta hesabla hər bir ton-kilometr qarşılığında İrana 1,4 milyon rial (təxminən 33,3 dollar) gəlir gətirir.

DEMOKRATİK, MÜSTƏQİL QƏZET
BAKI XƏBƏR
Həftədə 5 dəfə çıxır
Qəzet 2003-cü ildən nəşr olunur
www.baki-xeber.com

«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -

Abunə!

Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.

1 aylıq abunə qiyməti - **8 AZN**
3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96
**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83
**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

# Ümumdünya Forumunda Bakı və Azərbaycan Prezidenti dəfələrlə nümunə kimi göstərildi

## "Bəzi dəlisov liderlər dünyanı fəlakətə aparır..."

**Mayın 2-də Bakıda "Ayrıseçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu işə başlayıb. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Forumun açılış mərasimində iştirak edib. Forum Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası və ISESCO-nun tərəfdaşlığı ilə keçirilir. Tədbirdə 100-dən çox ölkənin və 30-dan çox beynəlxalq təşkilatın yüksək səviyyəli rəsmiləri iştirak edir.**

2008-ci ildən Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən "Bakı Prosesi" 10 il ərzində müxtəlif qitələrdə yaşayan fərqli etnik, mədəni, dini və linqvistik mənsubiyyəti olan ayrı-ayrı insanlar və qruplar arasında qarşılıqlı anlayış çərçivəsində səmimiyyət və hörmətə əsaslanan fikir mübadiləsi üçün müsbət platforma yarada bilib. Ötən müddət ərzində Forumun coğrafiyası çox genişlənib. Nəticədə tədbirə qoşulan qurumların sayı xeyli artıb. Budəfəki foruma Latın Amerikası ölkələrindən tutmuş Səudiyyə Ərəbistanı, Böyük Britaniya kimi dövlətlərin təmsilçiləri qatılıb. Beşinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində insanlar arasında həmrəylik yaratmaqda və müxtəlif icmalarda zorakılığa və ayrıseçkiliyə qarşı mübarizədə mədəniyyətlərarası dialoqun mühüm rolu öyrənilir. Forum üç istiqamətdə davam edəcək.

Azərbaycan Prezidenti Forumun açılış mərasimində nitq söyləyib.

Dövlət başçısı deyib ki, Bakıda keçirilən növbəti Forum çərçivəsində aparılacaq müzakirələr, fikir mübadiləsi ümumi məqsədlərə xidmət edəcək. "Bakı Prosesi"nin BMT və digər mötəbər təşkilatlar tərəfindən dəstəkləndiyini deyən Prezident İham Əliyev burada qəbul edilən qərarların əhəmiyyətdən danışıb. Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verib və bu münaqişənin yaratdığı problemlərə baxmayaraq, Azərbaycanın sürətlə inkişaf etdiyini deyib.

Forumda çıxış edən BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Angel Moratinos ilk dəfə möhtəşəm Bakı şəhərində olmasından son dərəcə məmnunluğunu ifadə etdi. Bildirdi ki, BMT- nin Sivilizasiyalararası Alyansı Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılmış "Bakı Prosesi"nin tərəfdaşıdır. "Birlik Bakı Prosesi"nin ruhudur", - deyən Migel Moratinos əlavə etdi ki, Bakı BMT-nin Sivilizasiyalararası Alyansının habına çevrilə bilər. O, dünyada baş verən hadisələr fonunda bu beynəlxalq mötəbər tədbirin vaxtında keçirildiyini vurğulayıb və Forumda müzakirə olunacaq məsələlərin əsas istiqamətlərindən danışıb.

UNESCO-nun Baş direktorunun sosial və humanitar elmlər üzrə müavini Nada Al-Naşif dünyada multikulturalizmin təbliğində və bəşəri dəyərlərin bərqərar olmasında Prezident İlham Əliyevin və ölkəmizin rolunu xüsusi vurğulayıb. Bildirdi ki, bəşəriyyətin başlıca hədəfləri müsbət dəyişikliklər, insan hüquqları, dayanıqlı inkişaf və müxtəlifliyin təmin edilməsi olmalıdır. Nada Al-Naşif bu istiqamətdə UNESCO xəttilə də silsilə tədbirlərin həyata keçirildiyini deyib, həmin mötəbər beynəlxalq qurumun mədəniyyətlərarası dialoqun daha səmərəli olmasına töhfələrini əsirgəmədiyini diqqətə çatdırıb.

İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Osaymin bu tədbirin Qərblə İslam dünyası arasında mədəniyyətlərarası dialoqa mühüm töhfə olduğunu vurğulayıb. İslam Əməkdaşlıq Təşkilatının Baş katibi mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun çox zəruri olduğunu və bütün ölkələrin bu istiqamətdə səylərini birləşdirmələrinin vacibliyini deyib. O, Prezident İlham Əliyevin mədəniyyətlərarası dialoqun gücləndirilməsi işinə daim sadiqlik nümayiş etdirdiyini vurğulayıb.

Avropa Şurasının Baş katibinin müavini Qabriella Battaini-Draqoni Azərbaycanın mədəniyyətlərarası dialoqda aparıcı dövlətlərdən biri olduğunu bildirdi. O, "Bakı Prosesi"nin uğur tarixçəsinə çevrildiyini xüsusi vurğulayıb. Avropa Şurasının dünyada mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun gücləndirilməsi, gənclərin maarifləndirilməsi və digər istiqamətlərdə kompleks iş apardığını deyən Qabriella Battaini-Draqoni bu baxımdan Bakı Forumunun mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.



ISESCO-nun Baş direktoru Əbdüləziz Osman əl-Tuveycri Bakı Forumunun dünyanın ən nüfuzlu tədbirlərindən biri olduğunu deyib. O, indiki dövrdə dünya liderlərinin siyasi iradə göstərməsinin vacibliyini diqqətə çatdıraraq, bu baxımdan Prezident İlham Əliyevin nümunəvi mövqe nümayiş etdirdiyini xüsusi vurğulayıb. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq birliyin ədalətsiz mövqe tutduğunu, bunun yolverilməz olduğunu deyən Əbdüləziz Osman əl-Tuveycri dünyanı Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasına dəstək verməyə çağırıb.

Bakıda keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu açılış mərasimindən sonra işini "Dayanıqlı inkişaf məqsədləri üçün tərəfdaşlığın qurulması" mövzusunda beynəlxalq təşkilatların yüksək səviyyəli görüşü ilə davam etdirib.

Tədbirin moderatoru, BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Qulam İshaqzai 2016-cı il yanvarın 1-də dünya ölkələrinin liderlərinin bir araya gələrək qəbul etdikləri 17 Dayanıqlı İnkişaf Məqsədinin əsas vəzifəsinin hazırda bəşəriyyətin inkişafının qarşısında duran əsas problemlərin həll edilməsi olduğunu deyib.

Dünyada uşaqların 50-70 %-i psixoloji, seksual və fiziki zorakılığın qurbanı olur. Cəmiyyətə izah edilməlidir ki, uşaqlara qarşı bütün zorakılıq növləri aradan qaldırılmalıdır.

Uşaq müdafiəsi, Avropa və Mərkəzi Asiya üzrə baş regional məsləhətçi Aaron Qrinberq V Dünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində "Dayanıqlı inkişaf məqsədləri üçün tərəfdaşlığın qurulması" mövzusunda keçirilən beynəlxalq təşkilatların yüksək səviyyəli görüşdə çıxışı zamanı belə deyib.

Aaron Qrinberq qeyd edib ki, erkən uşaqlığın inkişafına qoyulan sərmayələr öz töhfəsini yaxşı verir: "Hazırda bu sahələrə nəhəng sərmayələr qoyulur. Ancaq hələ də 4 milyon uşaq bu sahəyə çıxışı təmin edə bilmir. Bu sərmayələr uzun müddətli nəticələr əldə etmək üçün yatırılır. Bir çox dövlətlərin apardığı tədqiqatlarda çox sayda uşaqların zorakılığa məruz qaldıqları görünür".

Dünya Turizm Təşkilatının icraçı direktoru Manuel Butler Halter forum çərçivəsində "Dayanıqlı inkişaf məqsədləri üçün tərəfdaşlığın qurulması" mövzusunda beynəlxalq təşkilatların yüksək səviyyəli görüşü zamanı deyib ki, "Bakı fantastik şəhərdir və burada olduğuma görə çox şadam. Bakı forumu mühüm məsələlərin müzakirə edilməsi üçün çox gözəl platformadır. Azərbaycan forumu yüksək səviyyədə təşkil edib və gündəliyə mühüm məsələlər daxil edilib".

İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman Əl-Tüveycri V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində nazirlərin görüşü zamanı deyib ki, bu gün dünyanın mədəniyyətlərarası dialoqa böyük ehtiyacı var. İslam bərabərlik, ədalətlilik, tolerantlıq, humanizm dini olduğu halda bu dini terrorizm kimi qələmə verməyə çalışırlar:

"Bəzi siyasətçilərin öz gündəliyi var, geosiyasi mübarizələr gedir. Dünyada bizim gözümüz qarşısında müharibələr, münaqişələr baş verir, şəhərlər dağıdılır, miqrasiya getdikcə artır. Bütün bunların baş verməsində məsuliyyət böyük güclərin üzərinə düşür".

Ə.Tüveycri vurğulayıb ki, dünyada əməkdaşlığa böyük ehtiyac var: "Biz sülh şəraitində yaşamaq üçün bir-birimizə hörmətlə yanaşmalıyıq. Bəzi dəlisov liderlər dünyanı fəlakətə aparırlar. Somalidə, Liviyada vəziyyət göz önündədir. Mən Azərbaycan hökumətinə səmimi qəlbdən minnətdarlıq edirəm".

# Elçin Quliyevin ordusu Ermənistanla sərhədlərimizin keşiyində və ilk sınaq...

**Məlumat verildiyi kimi, 2019-cu ilin 29-30 aprel tarixlərində Qazax rayonu istiqamətində Ermənistanla dövlət sərhədində Dövlət Sərhəd Xidmətinin sərhəd döyüş məntəqələri Ermənistan Respublikasının silahlı qüvvələrinin bölmələri tərəfindən bir neçə istiqamətdən günün müxtəlif vaxtlarında iriçaplı silahlardan dəfələrlə intensiv atəşə tutulmuşdu.**



*"Bu, sərhədçilərimiz üçün alnıaçıq çıxdıqları sınaq, düşmən üçün isə bir xəbərdarlıq oldu"*

**Daşdəmir Əliyev:** *"Qazaxda baş verən hadisə bir daha göstərdi ki, bizim istənilən növ qoşun hissələrimiz düşmənə layiqli cavab verməyə qadirdir"*

Bütün hallarda, bölmələrimizə qarşı atəşin açıldığı Ermənistan silahlı qüvvələrinin döyüş mövqeləri istiqamətində cavab atəşi açılaraq, onlar susdurulub.

Yaranmış vəziyyətdən sonra Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının Ermənistanla dövlət sərhədində "Qazax" sərhəd dəstəsinin hərbi hissə və bölmələrinin xidməti-döyüş fəaliyyətini yoxlayıb, sərhəd döyüş məntəqələrində şəxsi heyətlə görüşüb, xidməti və yaşayış şəraitlərinə baxış keçirib.

Bu barədə DSX-nin mətbuat xidməti məlumat yayıb.

E.Quliyev dövlət sərhədində zəruri müdafiə infrastrukturunun yaradılması məqsədilə görülən işlərlə tanış olub.

Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının və "Qazax" sərhəd dəstəsinin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə keçirilmiş xidməti müşavirədə hərbi hissə və bölmələrinin döyüş hazırlığının yüksəldilməsi istiqamətində zəruri tapşırıqlar verilib.

Qeyd edək ki, cəbhənin deyilən istiqamətindəki ön xətti qorumaq bir müddət əvvəl məhz Sərhəd Qoşunlarına həvalə edilib. Qazax istiqamətində düşmənin törətdiyi təxribat Sərhəd Qoşunlarımız üçün sınaq kimi qəbul edilə bilərmi və sərhədçilərimiz bu sınaqdan necə çıxdılar?

**Hərbi ekspert Daşdəmir Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bəlkə də bu, Ermənistanın məhz həmin istiqamətdə həyata keçirmək istədiyi bir nəbz yoxlaması idi:** "Çünki onlar bilirdilər ki, cəbhənin məhz həmin istiqamətindəki ön səngərlərdə Vətənin keşiyini çəkmək sərhədçilərimizə tapşırılıb. Qeyd edə bilərik ki, Ermənistan ilə dövlət sərhədinin Qazax və Ağstafa rayonlarının ərazisindən keçən hissəsindəki təmas xəttində xidməti-döyüş fəaliyyətinin təşkili Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən Dövlət Sərhəd Xidmətinə həvalə olunduqdan sonra həmin ərazilərdə dövlət sərhədlərinin müdafiəsi və mühafizəsi infrastrukturunun yaradılması tədbirləri sürətlə davam etdirilir. Sərhədçilər üçün ən müasir tələblərə cavab verən sərhəd döyüş məntəqələri, digər hərbi obyektlər qısa müddət ərzində tikilərək istifadəyə verilir. Biz bütün bu məlumatlarla mütəmadi olaraq KİV-də tanış oluruq. Məhz həmin istiqamətdə hətta yeni hərbi hissələrin açılışı da baş tutub. Dövlət sərhədinin Qazax və Ağstafa rayonları ərazisindən keçən hissəsinin Dövlət Sərhəd Xidməti tərəfindən mühafizəyə götürülməsi dövlət sərhədlərinin bütövlüyünün təmin edilməsi prosesində bir başlanğıc mərhələ kimi də qeyd oluna bilər. Qazaxda baş verən hadisə bir daha göstərdi ki, bizim istənilən növ qoşun hissələrimiz düşmənə layiqli cavab verməyə qadirdir. Onların hər biri nəinki müdafiə olunmağa, istənilən vaxt torpaqlarımızn düşməndən azad edilməsi istiqamətində aparılacaq döyüşlərdə də yüksək göstəricilər nümayiş etdirməyə qadirdir. Hesab edirəm ki, bu, sərhədçilərimiz üçün alnıaçıq çıxdıqları sınaq, düşmən üçün isə bir xəbərdarlıq oldu. Qoy bilsinlər ki, bizim bütün sərhədlərimiz belə ayıq-sayıq qorunur. Sərhəd Qoşunlarının düşmənə qarşı müharibə aparmaqda kifayət qədər təcrübəsi və parlaq ənənəsi var. Məhz bu qoşun növləri müharibənin müəyyən mərhələsində ön cəbhədə rəşadətlə vuruşub, bizim şəhid olan sərhədçilərimiz var. Bu sınaqdan mətinliklə çıxdıqlarına, düşmənə layiqli cavab verdiklərinə görə sərhədçiləri təbrik edirəm".

*Məhəmmədəli QƏRİBLİ*

# Bolqarlar qazımızdan da istifadə etməyə başlayır - bu ölkə erməni canilərə qırmızı işıq yandırmaqda da davam edəcəkmi...

**Azərbaycan qazının Bolqarıstana nəqlini nəzərdə tutan Yunanıstan-Bolqarıstan birləşdirici qovşağının (İGB) tikintisi bu il mayın 20-də rəsmən başlayacaq. Bunu mətbuata açıqlamasında Bolqarıstanın Baş naziri Boyko Borisov deyib.**



*"İstəyir ki, Azərbaycan şirkətləri bu ölkənin qazlaşmasında fəal iştirak etsinlər"*

**Mübariz Əhmədoğlu:** *"Enerji sahəsində əməkdaşlığın genişlənməsi Bolqarıstanın Ermənistanla yaxınlaşmasını zəiflədəcək"*

Bolqarıstan enerji naziri Temenuzuka Petkova isə bildirib ki, Bolqarıstan hələ də vahid qaz tədarükçüsündən asılıdır və buna görə də ölkənin səyləri tədarük baxımından müstəqilliyin təmin edilməsinə yönəlib. Onun fikrincə, bu baxımdan bölgənin təhlükəsizliyini təmin edəcək ən əhəmiyyətli layihə İGB olacaq.

Məlumat üçün qeyd edək ki, 2013-cü ilin sentyabrında "Bulgargaz EAD" "Şahdəniz-2" çərçivəsində ildə 1 milyard kubmetr qazın alışı ilə bağlı 25 illik saziş imzalayıb. Azərbaycan təbii qazı "Trans-Adriatik" (TAP) qaz boru kəməri ilə 2020-ci ildə Avropaya çatdırılacaq. Həmin ildə Yunanıstan-Bolqarıstan qaz şəbəkələrinin bir-birilə əlaqələndirilməsi planlaşdırılır. Bolqarıstan bu kəmərlə 2020-ci ildən etibarən ildə 1 milyard kubmetr Azərbaycan qazı alacaq. Azərbaycan qazı Bolqarıstanın istehlakının dörddəbir hissəsini ödəyəcək. İGB qaz boru kəmərinin Komoti və Stara Zagorada çıxış nöqtəsi olacaq, Yunanıstan və Bolqarıstan milli təbii qaz sistemləri arasında birbaşa əlaqə yaradılacaq. Boru kəməri Yunanıstandan Bolqarıstana ildə təxminən 3 milyard kubmetr təbii qaz nəqli qabiliyyətinə malik olacaq və gələcək bazar tələbatına əsasən bu həcmin illik 5 milyard kubmetrə çatdırılması imkanı var.

O da məlumdur ki, Bolqarıstanla Ermənistan çox yaxın münasibətlərə malikdir. Hətta bu ölkədə faşist Qaregin Njdeyə heykəl qoyulacağı barədə məlumatlar var. Məlumata görə, bu barədə Bolqarıstan hökuməti qərar qəbul edib. Njdenin bürünc abidəsinin Bolqarıstanın şimal-şərqindəki Pliska şəhərində yerləşən "Kiriliya Məhkəməsi" mədəni-tarixi kompleksində inşa ediləcəyi deyilir.

Maraqlıdır, İGB və belə layihələr Bolqarıstanı Ermənistanla yaxınlaşmaqdan çəkindirə biləcəkmi? Bu kimi layihələrin sözügedən məsələdə rolunu ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlunun sözlərinə görə, prinsipcə, belə əlaqələr sözügedən məsələdə faydalı rol oynaya bilər:** "O qədər vacib məsələlər var ki, bütün bunlar, nəticə etibarilə, Ermənistan-Bolqarıstan əlaqələrini arxa plana ata bilər. O cümlədən, bu, Njde ilə bağlı məsələyə də təsir edəcək. Qeyd edim ki, onunla bağlı məlumat rəsmən təsdiq olunmayıb. Bununla belə, Bolqarıstanın Ermənistanla əlaqələri elə də xüsusi əhəmiyyət kəsb etmir. Bir vaxtlar Bolqarıstanın Ermənistanı antitürk mövqeyi birləşdirirdi. Guya ki, bolqarlarla ermənilər Osmanlı imperiyasının zülmündən əziyyət çəkiblər. Ancaq bu məsələ çoxdandır əhəmiyyətini itirib. Bolqarıstan qonşu dövlətlərlə, o cümlədən, Türkiyə ilə yaxın münasibətlərə malikdir. Bununla yanaşı, Bolqarıstanın açıq-aşkar siyasəti Avropa yönümlüdür. Onlar üçün Avropa dəyərləri daha vacib əhəmiyyət kəsb edir, nəinki Ermənistanla yaxın əlaqələr qurmaq. Başqa bir tərəfdən, Bolqarıstan kifayət qədər kasıb bir dövlətdir. Sovet dönəmində də bu belə idi. Yalnız ölkənin paytaxtı olan Sofiya qazlaşıb. Digər ərazilər qazlaşmayıb. Ona görə də Bolqarıstan Azərbaycanla yaxınlaşmaqda və bizim qazımızı idxal etməkdə maraqlıdır. İstəyir ki, Azərbaycan şirkətləri bu ölkənin qazlaşmasında fəal iştirak etsinlər. Bu da hər dövlətin şirkətinə müəssər olan məsələ deyil. Azərbaycan həm Bolqarıstanda qaz xətlərinin çəkilməsində iştirak edəcək, həm də bu ölkəyə 1 milyard kubmetr qaz ixrac edəcək. Bir vaxtlar müəyyən dairələr İran-Ermənistan multimodal daşımalar layihəsinə Bolqarıstanı da cəlb etmək istəyirdilər. Bununla bağlı tədbir də keçirildi. Son nəticədə Bolqarıstan bundan imtina etdi. Yəni bu ölkə Azərbaycanla olan münasibətləri nəzərə aldı. Bir sözlə, enerji sahəsində əməkdaşlığın genişlənməsi Bolqarıstanın Ermənistanla yaxınlaşmasını zəiflədəcək".

*Vidadi ORDAHALLI*

# Azərbaycan diplomatiyasından Ermənistanın Uruqvay ssenarilərini iflas həddinə gətirən gediş...

## *Qabil Hüseynli: "Bu cür münasibətlərin inkişafı həmin regionda erməni təsirlərini zəiflədə bilər"*

**Azərbaycan diplomatiyası daha bir mühüm uğura imza atıb. Bu dəfə Ermənistanın və erməni lobbisinin Latın Amerikası ölkələrində göstərdiyi fəallığın neytrallaşması istiqamətində ciddi gediş edilib. Məlumdur ki, ermənilərin Latın Amerikası regionunda ən yaxşı əlaqələr qurduğu ölkələrdən biri məhz Uruqvaydır.**

Təsadüfi deyil ki, məhz bu əlaqələrin fonunda, Uruqvay hələ 1965-ci ildə qondarma "erməni soyqırımı"nı ilk tanıyan ölkə olub. Bu əlaqələrdən istifadə edərək həmin ölkədəki erməni diasporu indi də "Artsax" adlandırdıqları qondarma bir rejimin "müstəqilliyini" Uruqvayda tanıtmağa nail olmaq istəyirlər. Ancaq ölkəmizin atdığı mühüm diplomatik addımlardan hiss edilir ki, ermənilərin bu istəkləri ürəklərində qala bilər. Çünki xarici işlər naziri Elmar Məmmədyarovun Azərbaycanda rəsmi səfərdə olan Uruqvay Şərq Respublikasının xarici işlər naziri Rodolfo Nin Novoa ilə görüşündə mühüm nəticələrin əldə olunduğu bildirilir. Xarici İşlər Nazirliyindən verilən məlumata görə, nazirlərin təkbətək görüşündən sonra danışıqlar geniş tərkibdə davam etdirilib. Danışıqlar zamanı tərəflər iki ölkə arasında siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün əlverişli imkanların olduğunu qeyd ediblər. E.Məmmədyarov uruqvaylı həmkarını səmimi salamlayaraq, onun ölkəmizə rəsmi səfər etməsini yüksək dəyərləndirib və hazırda Azərbaycanla Uruqvay arasında münasibətlərin genişlənməsi mərhələsinin müşahidə edildiyini bildirib.



Rodolfo Nin Novoa Prezident İlham Əliyev tərəfindən qəbul olunduğundan və Bakıda keçirilən V Dünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak edəcəyindən məmnunluğunu ifadə edib. O, ölkələr, xalqlar arasında xoşməramlı təmasların vacibliyini vurğulayıb və Uruqvayın məhz bu mövqedən çıxış edərək artıq 200 il ərzində davamlı şəkildə dünya ölkələrinin suverenliyi və ərazi bütövlüyünə hörmətlə yanaşdığını, bu mövqeyə daim sadiq qaldığını bəyan edib.

Uruqvaylı nazir Azərbaycanı dost ölkə adlandıraraq, ikitərəfli münasibətlərin kifayət qədər geniş iqtisadi gündəmə malik olduğunu söyləyib. Buna misal olaraq o, ötən ilin nəticələrinə dair Azərbaycanın Uruqvaya ən çox neft ixrac edən 5 ölkə sırasında olduğunu yada salıb. Eyni zamanda, onun ölkəsinin Azərbaycanla kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduğunu bildirən R.N.Novoa ikitərəfli münasibətlərin müqavilə-hüquq bazasının genişləndiyini qeyd edib.

E.Məmmədyarov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Uruqvayın nümayiş etdirdiyi prinsipial mövqeyə görə təşəkkürünü ifadə edib. Münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə əsasən, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi məlum 4 qətnaməyə uyğun bir şəkildə həll olunmasının önəmini vurğulayıb və Uruqvay tərəfinin bəyan etdiyi rəsmi mövqeyin bununla eyni olduğunu razılıqla qeyd edib. İkitərəfli əlaqələrin müqavilə-hüquq bazasına toxunan nazir E.Məmmədyarov iqtisadi, ticarət və humanitar əməkdaşlığın təşviqi üçün daha münbit şərait yaradan bir sıra saziş layihələrinin hazırda baxılmaqda olduğunu və R.N.Novoanın hazırkı səfəri çərçivəsində Azərbaycan və Uruqvay hökumətləri arasında "İqtisadi, ticarət və texniki əməkdaşlıq haqqında Saziş"in imzalanacağını məmnuniyyətlə səsləndirib. E.Məmmədyarov Azərbaycan-Uruqvay parlamentlərarası təmaslarının genişləndirilməsinin vacibliyini qeyd edərək, həmin əlaqələrin də qarşılıqlı faydalı əməkdaşlığın mühüm istiqamətlərindən biri olduğunu vurğulayıb.



Görüş əsnasında, həmçinin, ikitərəfli və çoxtərəfli gündəliyə aid digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Göründüyü kimi, iki ölkə arasında bir sıra mühüm razılaşmalar əldə olunub. Azərbaycanla Uruqvay arasında əldə olunan razılaşmalar Ermənistanın həmin ölkədə həyata keçirmək istədiyi məkrli işlər istiqamətindəki fəaliyyətinin qarşısını alıb, onun əl-qolunu bağlaya bilərmi?

**Politoloq Qabil Hüseynli qəzetimizə bildirdi ki, Azərbaycan xarici siyasət kursunda çoxvektorlu siyasət yürüdür:** "Yəni bizim milli maraqlarımıza cavab verən səviyyədə ölkələrlə əməkdaşlığımızı qurmuşuq. Balanslı siyasət, yaxın qonşularla mehriban münasibətin qorunub saxlanması, münaqişədə olan tərəflər arasında neytral qalmaq kimi kombinasiyalar bu siyasətin tərkib hissəsi olub. Məhz bu yöndə yürüdülən siyasətin uğurlarıdır ki, Azərbaycan belə təhlükəsiz şəraitdə yaşayır və inkişaf edir, özünün təbii ehtiyatlarını şaxələndirilmiş marşrutlarla dünya bazarına çıxarıb sata bilir. Bizim milli maraqlarımızın qorunmasını xarici siyasət kursunda təşkil edən istiqamətdən ən önəmlisi erməni yalanları ilə mübarizə tutur. Biz həmin ölkə ilə müharibə şəraitindəyik. Onlar həm dövlət resursları, həm də geniş diaspor imkanları ilə bizə qarşı yalan dolu təbliğatı bütün dünya ölkələrində aparırlar. Artıq dünya qloballaşdığı üçün, indi ölkələrin məkanca bizə uzaq və ya yaxın olması elə bir prinsipial əhəmiyyət kəsb etmir. Bu baxımdan da ermənilərin yeni yalanlar cücərtmək istədiyi istənilən istiqamətə həmlə etməliyik, ağıllı gedişlərimizlə onların məkrli niyyətlərinin həyata keçməsinə imkan verməməliyik. Cənubi Amerikada güclü erməni lobbisi var. Xüsusən bu regionun Argentina və Uruqvay dövlətlərində erməni lobbisi daha güclüdür. Dünya ölkələri arasında qondarma "erməni soyqırımı"nı ilk Uruqvay tanıyıb. Son vaxtlar hiss edilir ki, Azərbaycan və Türkiyə Latın Amerikasında mövqelərini gücləndirmək istiqamətində addımlar atırlar. Elmar Məmmədyarovun Latın Amerikası ölkələrinin təmsilçiləri ilə sıx-sıx görüşməsi və bu yöndə yürüdülən siyasət artıq öz bəhrəsini verib. Məsələn, ötən il həmin regionun ən önəmli ölkələrindən olan Çilinin Azərbaycanda səfirlik açmasını xüsusi qeyd edə bilərik.

Hər halda, bu cür münasibətlərin inkişafı həmin regionda erməni təsirlərini zəiflədə bilər. Hesab edirəm ki, Azərbaycanın Latın Amerikası ölkələrində səfirliyinin sayını bir qədər artırması doğru addım olardı. Bu baxımdan da Uruqvayla əldə olunan razılaşmaları həmin ölkəyə erməni təsirlərini neytrallaşdırmaq baxımından önəmli saymaq olar".

***Məmmədəli QƏRİBLİ***

# Paşinyan ABŞ-dakı Qarabağ danışıqlarında da davakarlıq göstərsə... bu ölkədən yardım gözləntisi birdəfəlik kəsilə bilər...

**Məlum olduğu kimi, Dağlıq Qarabağ mübnaqişəsinin həlli ilə bağlı növbət Azərbaycan-Ermənistan danışıqları ABŞ-da keçiriləcək. Artıq bu istiqamətdə müəyyən proseslər gedir. Azərbaycanın ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri olan ABŞ-dan gözləntisi ondan ibarətdir ki, hazırda danışıqlar masasında olan təkliflərə uyğun olaraq, digər həmsədr dövlətlərlə birlikdə münaqişənin həlli istiqamətində səylərini artırsın.**

## *"Paşinyan hazırkı siyasi kursunu davam etdirsə..."*

## ***Məhəmməd Əsədullazadə:*** *"Məhz İrəvanın bu yanaşmasına görə Vaşinqton Paşinyana maliyyə və siyasi dəstək verməyəcək"*




Nəticə etibarilə, regionda davamlı sülh, sabitlik və hərtərəfli regional əməkdaşlıq təmin olunsun. Əslində, Vaşinqton Bakının bu niyyətinə müsbət yanaşdığını və eyni mövqeni bölüşdüyünü gizlətmir. Bunu ötən ilin oktyabrında Azərbaycana səfərinin nəticələri ilə bağlı verdiyi açıqlamalarda ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton da təsdiq edib. Səfəri fonunda Dağlıq Qarabağ münaqişəsinə xüsusi diqqət ayırldığını diqqətə çatdıran ABŞ rəsmisi qeyd edib ki, bu problemin həlli Birləşmiş Ştatlar üçün də mühüm əhəmiyyət kəsb edir. Bolton əlavə edib ki, ATƏT-in Minsk Qrupunun həmsədri kimi ABŞ bundan sonrakı dövrdə də münaqişənin həlli istiqamətində səylərini davam etdirəcək və nəticələr əldə olunmasına çalışacaq.

O da məlumdur ki, Nikol Paşinyanın göstərdiyi bütün səylərə baxmayaraq, Ermənistan ABŞ-dan və Avropadan vəsait cəlb edə bilmir. Baxmayaraq ki, ilk vaxtlar Paşinyanın bu yöndə gözləntiləri böyük idi. Müxtəlif populist vədlər verirdi və s. Ancaq hələ ki, gözlənilən nəticəni əldə edə bilməyib.

Maraqlıdır, Paşinyan Vaşinqtonda keçiriləcəyi gözlənilən Qarabağ danışıqlarında da qeyri-konstruktiv mövqe tutarsa, bu onun ABŞ-dan maliyyə gözləntilərinin üzərindən birdəfəlik xətt çəkilməsinə gətirib çıxara bilərmi?

**Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə bunu istisna etmədi.** Onun fikrincə, Ermənistanın qeyri-konstruktiv siyasəti regionda sülhü və təhlükəsizliyi təhdid etməkdədir: "ABŞ-ın Cənubi Qafqaz siyasətinin fəallaşmasını nəzərə alsaq, məhz münaqişənin həll edilməməsi Vaşinqtonun regiona açılım siyasətinin qarşısını alır. Hesab edirəm ki, Vaşinqtonun siyasəti arıq Ermənistana təzyiq istiqamətində ola bilər. Çünki Paşinyanın Rusiya ilə münaqişənin həllində birgə fəallığı ABŞ-ın region siyasətinin qarşısını alır. Məlum olduğu kimi, ABŞ "Azadlığa dəstək aktı"na görə Ermənistana maliyyə yardımı edir. Həmçinin, müxtəlif sahələrdə humanitar yardımlar edir. O baxımdan, Paşinyan hazırkı siyasi kursunu davam etdirsə, Vaşinqton mövcud maliyyə yardımını, ümumiyyətlə, azaldacaq. Digər maliyyə transı da olmayacaq. Hansı ki, Paşinyanın ümidi bunadır. ABŞ-ın Cənubi Qafqaz siyasətində əsas manеə Qarabağ konfliktinin həlli istiqamətində yaranan çətinlikdir. Vaşinqton ötən il bu vaxtlar Ermənistanda inqilaba onə görə tam dəstək verdi ki, Paşinyan ölkəsində Rusiyanın siyasi-hərbi üstünlüyünü zəiflədəcək və Qarabağ münaqişəsinin həllində konstruktiv mövqe tutacaq. Məhz bu istiqamətdə Vaşinqton Paşinyana dəstək verdi, hakimiyyətə gəlməsinə siyasi zəmin yaratdı. Qeyd edim ki, ötən il C.Boltonun regiona səfəri çərçivəsində İrəvanda verdiyi mesajlar məhz Qarabağ münaqişəsinin həllində erməni hakimiyyətinə ünvanlanmışdı".

M.Əsədullazadənin fikrincə, "məxməri inqilab"dan bir il ötsə də, ABŞ-ın Ermənistanla bağlı gözləntiləri özünü doğrultmadı: "Vaşinqtonun gözləntilərinin əksinə olaraq, Ermənistan rəhbərliyi Rusiya ilə yaxınlaşaraq münaqişənin həllini mümkünsüz yola gətirməyə çalışır. Təbii ki, İrəvanın bu manipuliativ siyasəti Vaşinqtonda narahatlıqla qarşılanmaqdadır. Çünki geopolitik qarşıdurmada Paşinyan onu hakimiyyətə gətirən ABŞ-a arxa çevirir, Moskvanın siyasətini dəstəkləyir. Məhz İrəvanın bu yanaşmasına görə Vaşinqton Paşinyana maliyyə və siyasi dəstək verməyəcək. Moskva görüşündən sonra ABŞ Qarabağ münaqişəsinin nizamlanması üzrə danışıqların Vaşinqtonda keçirilməsi təşəbbüsünü irəli sürüb. Məqsəd İrəvanı konstruktiv və substantiv danışıqlara cəlb etmək və təzyiq mexanizmini bundan sonra tətbiq etməkdir. Əgər Paşinyan iqtidarı Vaşinqton danışıqlarına rəğmən, yenidən Moskva ilə bu istiqamətdə koordinasiyalı fəaliyyət göstərsə, ABŞ-ın maliyyə və siyasi dəstəyindən məhrum olacaq. Artıq ABŞ-la Rusiya bir-birinə qarşı düşmən siyasət aparır. Əvvəlki illərdən fərqli olaraq, ABŞ Ermənistanın Rusiyaya Qarabağ məsələsində yaxınlaşmasına seyrçi qalmayacaq. Çünki ABŞ üçün Cənubi Qafqaza giriş Mərkəzi Asiyaya açılımdır və Xəzər regionuna nəzarətdir. ABŞ-la Azərbaycanın regional və taktiki-strateji siyasəti üst-üstə düşür. Vaşinqton görüşündən sonra real siyasi dəyişikliklər olmasa, artıq danışıqların limitinin bitdiyi Bakı tərəfindən elan olunmalıdır. Azərbaycan güc yolu ilə sülhə cəlb etmək taktikasını tətbiq etməlidir. ABŞ da Azərbaycana bu kontekstdə dəstək verə bilər".

***Vidadi ORDAHALLI***



# ABŞ-dan daha bir qalmaqallı Venesuela açıqlaması... Hərbi müdaxilə planı hazırdır

## *Pompeo Maduronun ölkədən qaçmaq istədiyini, ancaq Rusiyanın onun qarşısını aldığını iddia etdi - Moskvadan da reaksiya var...*

**ABŞ müdafiə nazirinin səlahiyyətlərinin müvəqqəti icraçısı Patrik Şanahan Venesuelaya hərbi müdaxilə planının hazır olduğunu bəyan edib.**

Baki-xeber.com xəbər verir ki, Konqresdə çıxış edən P.Şanahan bütün variantların masada olduğunu deyib.

"Bütün variantlar masada deyirik, həqiqətən də masadadır. Ancaq biz mümkün qədər diplomatik və iqtisadi təzyiqlərdən istifadə edirik" - Şanahan bildirib.

ABŞ rəsmisi Venezueladakı vəziyyəti yaxından izlədiklərini və ölkədəki vəziyyətin olduqca dəyişkən olduğunu deyib: "Venesuelada kubalılar, ruslar və başqaları da var. Hər şey media və ya başqa kanallarla aydın görünmür...

Ortaya çıxa biləcək bir vəziyyətdə, üstünlük əldə etmək üçün taktikalarımızı dəyişdirə biləcək və müəyyən bir ölçüdə cavab verə biləcək vəziyyətdəyik. Gözlənilməz bir vəziyyətin ortaya çıxa biləcəyi bir ssenari və vəziyyətin olmaması üçün təfərrüatlı plan hazırlamışıq" - Pentaqon rəsmisi deyib.

Bu arada, ABŞ dövlət katibi Mayk Pompeo Venesuela prezidenti Nikolas Maduronun qısa müddət əvvəl ölkəni tərk edərək Kubaya getməyi planlaşdırdığını iddia edib. Pompeo Rusiyanın buna müdaxilə edərək Maduronu fikrindən daşındırdığını deyib.

Onun sözlərinə görə, Maduro ölkəni tərk edib Kubaya uçmaq istəyirmiş, amma Rusiya ona ölkədə qalmağı əmr edib.

"Ümid edirəm ki, Maduro bu qərarı yenidən düşünəcək və o təyyarəyə minəcək" - Pompeo deyib.

Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova isə Venesuela ordusunu ruhdan salmağa çalışan ABŞ-ın indi də informasiya müharibəsi çərçivəsində yalan məlumatlar yaymağa başladığını deyib.

"Vaşinqton var gücü ilə Venesuela ordusunu ruhdan salmağa çalışdı və indi də informasiya müharibəsi çərçivəsində yalan xəbərlərə əl atır" - ABŞ-ın iddiası barədə CNN-ə açıqlama verən Zaxarova deyib.

**Məlum olduğu kimi, hazırda Bakıda V Dünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Mayın 3-də başa çatacaq forumun təşkilatçıları Azərbaycan hökuməti və Mədəniyyət Nazirliyi, tərəfdaşları isə UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası və İSESCO-dur.**

# Türkdilli ölkələrin yaxınlaşmasında İpək Yolunun rolu - Bakıda ümumdünya müzakirələrinin maraqlı mövzuları var

***Əkbər Qoşalı:** "Bu tarixi yol, nəticə etibarilə, qardaş türkdilli dövlətlər və toplumlar arasında münasibətləri həm dərinləşdirir, həm də genişləndirir"*

Dünyanın bir sıra ölkələrindən rəsmi qurumların rəhbərlərinin qatıldığı forumun budəfəki mövzusu "Ayrıseçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" adlanır.

Sözügedən forum çərçivəsində insan həmrəyliyini yaratmaq və müxtəlif icmalarda zorakılığa və ayrıseçkiliyə qarşı mübarizədə yerli insanlara kömək etmək üçün (praktiki strategiya kimi) mədəniyyətlərarası dialoqun rolu öyrəniləcək.

Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda müzakirə edilən mövzulardan biri türkdilli dövlətlərin əlaqələrinin inkişafında İpək Yolunun rolu ilə bağlıdır.

**Bakı Atatürk Mərkəzinin şöbə müdiri, tanınmış şair-publisist Əkbər Qoşalı "Bakı-Xəbər"ə bildirdi ki, tarixi İpək Yolu türkdilli xalqların, dövlətlərin bir-birilə daha da yaxından təmas qurması, qaynayıb-qarışması baxımından böyük tarixi əhəmiyyətə malikdir.** "Tarixi İpək Yolunun bərpası ilə bağlı Azərbaycanın və digər qardaş türk dövlətlərinin müstəqillik qazandıqdan sonra tarixlərində atılan addımların böyük önəmi danılmazdır. Xüsusilə də Azərbaycanın İpək Yolunun müasir dövrün tələblərinə və çağırışlarına uyğun şəkildə bərpasında iştirakı və verdiyi töhfələr elə bir hadisədir ki, bunun işığı yalnız iştirakçı dövlətlərə, yalnız qardaş ölkələrə, qardaş türk toplumlarına deyil, bütün regiona və dünyaya təsir edir. Tarixi İpək Yolunun başlanğıcı bir türk ölkəsindən deyil, Çindən idi və bu yol vasitəsilə daşınmalar Avropa ölkələrinə gedib çıxırdı. Amma adından da göründüyü kimi, bir ölkədən başqa ölkəyə yükdaşımalar torpaq yol üzərindən keçirdi. Çindən İtaliyaya qərər yollara nəzarət əsasən türklərin, onların qurduqları dövlətlərin əlində idi. İpək Yolundan danışarkən başlanğıc və son ölkədən daha artıq məhz həmin yollara nəzarət edən, orada təhlükəsizliyi təmin edən babalarımız və onların qurduqları dövlətlər yada düşür. Bu gün də həmin coğrafiyada yerləşən Orta Asiyada Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan və sair ölkələr, Qafqazda Azərbaycan, Anadoluda qardaş Türkiyə yerləşir. Çindən İtaliyaya, yaxud Avropanın başqa ölkəsinə və ayrı-ayrı inkişaf etmiş şəhərlərə, Çindən də Yaponiyaya, Koreyaya, Vyetnama, Rusiyaya qədər uzanan tarixi İpək Yolunun bugünkü faydaları bəlkə də tarixdəki faydasından daha çoxdur. Bu gün su və hava yolları vasitəsilə yükdaşımalar nə qədər yüksək səviyyədə inkişaf etsə də, ancaq tarixi İpək Yolu üzrə daşımaların müasir dövrdə dəmir yolu vasitəsilə həyata keçirilməsinin istər daşınmanın təhlükəsizliyi, istər həcmi, istərsə də onun maya dəyəri baxımından əhəmiyyəti var. İqtisadçıların da dəfələrlə vurğuladığı kimi, bu yolun, demək olar ki, alternativi yoxdur. Saydıqlarımız bu məziyyətlər bugünkü türkdilli dövlətlərin və toplumların həyatında, ilk növbədə iqtisadiyyatında, sosial rifahında, büdcəyə daxilolmalarda özünü ifadə edir" - deyə bildirən Ə.Qoşalının sözlərinə görə, qeyd edilən məqamlar özündə yalnız iqtisadi, sosial məsələləri ehtiva etmir. Bunun, eyni zamanda, türk ölkələri arasında qarşılıqlı gediş-gəlişin, əlaqələrin, mədəniyyətlərin mübadiləsi, turizmin inkişafı baxımından da böyük əhəmiyyəti var. "Bu gün İpək Yolunun bərpası türkdilli dövlətlərin, qardaş ölkələrin bir-birilə daha yaxından əlaqələr, təmaslar qurmasına böyük töhfələr verib. Biz artıq bir-birimizə daha sürətlə yaxınlaşırıq. Ana dilimizdə olan sözlərimizi, mədəniyyətimizi, adət-ənənələrimizi, tariximizi, mətbəximizi bir-birimizlə yenidən paylaşmağımız baxımından İpək Yolunun çox böyük əhəmiyyəti var. Bu həm xoşməramlı münasibətləri artırır, həm yeni müsbət tendensiyalar yaradır, həm də qanunauyğunluqlara xidmət edir. Sıx gediş-gəliş, iqtisadi mübadilələr nəticəsində yalnız dövlətlər, elm adamları, təşkilatlar deyil, həm də insanlar bir-birilə əlaqələr formalaşdırır, cəmiyyətlər bir-birinə qaynayıb-qarışır. Bu tarixi yol, nəticə etibarilə, qardaş türkdilli dövlətlər və toplumlar arasında münasibətləri həm dərinləşdirir, həm də genişləndirir. Fürsətdən istifadə edib tarixi İpək Yolunun yenidən günümüzdə daha çağdaş formada bərpasında, canlanmasında xidməti olan və hazırda haqq dünyasında olan, türkdilli dövlətlərə rəhbərlik etmiş şəxsiyyətlərə Tanrıdan rəhmət diləyirəm. Bu gün türk toplumlarına rəhbərlik edən, İpək Yolu ilə bağlı siyasəti yüksək səviyyədə davam etdirən dövlət xadimlərimizə təşəkkürümü çatdırmaq istəyirəm. Elə başa düşürəm ki, bu deyilənlər və deyilənlərdən çıxan nəticələr yalnız mədəniyyətlərarası dialoq forumlarında deyil, gələcəkdə bir sıra başqa platformalarda da müzakirə mövzusuna çevriləcək. Hesab edirəm ki, yaxın gələcəkdə İpək Yolunun türkdilli dövlətlər arasındakı əlaqələrin inkişafına verdiyi töhfələr beynəlxalq qurumlarda, BMT-də, UNESCO-da faydalı bir istiqamət kimi geniş müzakirə olunacaq və təqdir ediləcək".



*"Yaxın gələcəkdə İpək Yolunun türkdilli dövlətlər arasındakı əlaqələrin inkişafına verdiyi töhfələr beynəlxalq qurumlarda faydalı bir istiqamət kimi geniş müzakirə olunacaq və təqdir ediləcək"*

**Ə.Qoşalı qeyd etdi ki, hazırda həm Azərbaycanda, həm də digər türkdilli ölkələrdə, qeyri-türk dövlətlərində tarixi İpək Yolu mövzusu tədqiqat obyektinə çevrilib və bu istiqamətdə elmi işlər yazılır. Onun sözlərinə görə, İpək Yolu siyasətinə elmin daha geniş miqyasda sirayət etməsi çox mühümdür.**

*İradə SARIYEVA*

---

**"Global Startup Ranking" reytinq agentliyi növbəti reytinq siyahısını açıqlayıb. Sevindirici haldır ki, Azərbaycan qlobal startap reytinqində 188 ölkə arasında 47-ci yerdədir. Qeyd edək ki, bu reytinqə ölkəmizdə fəaliyyət göstərən 200 startap daxil edilib.**

# Azərbaycan beynəlxalq startap reytinqində də Ermənistanı və Gürcüstanı üstələdi...

***Azər Allahverənov:** "Azərbaycanda startap layihələrinin həyata keçirilməsi üçün əlverişli şərait var"*



*"Görülən işlər nəticəsində Azərbaycan 200 startap layihəsi ilə 47-ci yerdə qərarlaşıb"*

Reytinq üzrə MDB məkanında üçüncü yeri tutan Azərbaycan qonşu ölkələri xeyli qabaqlayır. Belə ki, Ermənistan 13 startapla 102-ci, Gürcüstan isə cəmi 5 startapla 118-ci yerdə qərarlaşıb.

Məlumat üçün bildirək ki, reytinq cədvəlinə 46 625 startapla ABŞ liderlik edir. İlk beşliyə daxil olan ölkələr arasında Hindistan (6324), Böyük Britaniya (4929), Kanada (2513) və İndoneziya (2105) var. MDB ölkələri arasında Azərbaycandan irəlidə olan Rusiya 19-cu (569), Ukrayna isə 43-cü (241) yeri tutur. Qeyd edək ki, bu ölkələr əhali və ərazi baxımından daha böyükdür.

Ekspertlər Azərbaycanın qlobal startap reytinqində 188 ölkə arasında 47-ci yerdə qərarlaşmasının gözlənilən olduğunu bildirirl'r.

**Ekspert Azər Allahverənovun sözlərinə görə, sevindirici haldır ki, "Global Startup Ranking" reytinq agentliyinin tərtib etdiyi hesabatda Azərbaycan 47-ci yerdə qərarlaşıb:** "10-15 il öncə təsəvvür edə bilməzdik ki, Azərbaycanda müxtəlif sahələr üzrə startap layihələr həyata keçiriləcək. Nəticədə Azərbaycan dünya miqyasında startapçı ölkələr arasında hansısa yerə layiq görüləcək. 2012-2013-cü illərdən etibarən Azərbaycan biznes layihələri dünyada tanınmağa başladı. Görülən işlər nəticəsində Azərbaycan 200 startap layihəsi ilə 47-ci yerdə qərarlaşıb".

Ekspertin sözlərinə görə, Azərbaycanda startap layihələrinin həyata keçirilməsi üçün əlverişli şərait var. Əsasən biznes, rabitə, informasiya-kommunikasiya texnologiyaları sahəsində bir çox layihə həyata keçirilməyə başlayıb. 2018-ci ildə Azərbaycanda turizm, rabitə startap layihələri ilə bağlı tədbirlər keçirilib. Yaxşı olar ki, aqrar sahədə də startap layihələri həyata keçirilsin".

Həmsöhbətimiz onu da vurğuladı ki, biznes dairələri ilə yanaşı, təhsil müəssisələri də startap layihələrinin keçirilməsində maraqlıdır: "Onu da deyim ki, startap layihələrinin keçirilməsinə gənclər də maraq göstərirlər. Hesab edirəm ki, yaxın illər ərzində Azərbaycan qlobal startap reytinqində digər ölkələri də qabaqlaya bilər və daha yüksək mövqedə qərarlaşa bilərik.

*Günel CƏLİLOVA*

**Azərbaycanın yerləşdiyi əlverişli coğrafi mövqe ölkəyə tranzit sahəsində kifayət qədər böyük üstünlüklər qazandırmaqdadır. Elə bunun nəticəsidir ki, tranzit sahəsində həyata keçirilən siyasət, qurulan infrastruktur Azərbaycanı Avrasiya kimi böyük bir məkanda mühüm nəqliyyat qovşağına çevirməkdədir. Bu gün ölkəmizdən keçən nəqliyyat dəhlizləri həm də Azərbaycanın regional və qlobal əməkdaşlığın dərinləşməsinə böyük töhfələri kimi dəyərləndirilir.**

# 64 milyard dollardan Ermənistan bir dollar da pay ala bilmədi - Azərbaycanın sayəsində...

Son dövrlərdə bu istiqamətdə ən çox diqqət çəkən proseslərdən biri isə Azərbaycanın Çin tərəfindən irəli sürülən "Bir kəmər, bir yol" layihəsində yeri və roludur. Ölkəmizin bu prosesdə yüksək yeri Pekində baş tutan ikinci "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumu zamanı bir daha öz təsdiqini tapdı. Bir sıra beynəlxalq təşkilatların rəhbərlərinin, həmçinin 37 dövlət və hökumət başçısının qatıldığı forumda Azərbaycanı Prezident İlham Əliyev təmsil edib. Burada bir mühüm məqamı qeyd edək ki, "Bir kəmər, bir yol" layihəsi çərçivəsində Çin özü də Azərbaycanla əməkdaşlığa xüsusi maraq göstərir. Ümumiyyətlə, dünyanın ən böyük ixracatçısı və ən böyük ikinci idxalçı ölkəsi olan Çinin özünün xarici ticari-iqtisadi əlaqələrini daha da dərinləşdirməkdən ötrü irəli sürdüyü "Bir kəmər, bir yol" strategiyası Azərbaycan üçün də yeni əməkdaşlıq imkanları yaradır. Azərbaycan Çinin bu yeni təşəbbüsünün əməkdaşlıq, birgə inkişaf üçün yaratdığı imkanları düzgün qiymətləndirən, strategiyanı dəstəkləyən ilk ölkələrdən biri olub. Elə İlham Əliyevin hələ 2015-ci ilin dekabrında Çinə səfəri zamanı "Bir kəmər, bir yol" strategiyasının tərkib hissəsi olan "İpək yolu" iqtisadi kəmərinin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu imzalanıb. Azərbaycan rəsmiləri müxtəlif görüşlərdə və beynəlxalq tədbirlərdə ölkəmizin bu təşəbbüsə təkcə siyasi dəstək verməklə kifayətlənmədiyini, həm də onun icrasına özünün iqtisadi potensialı və nəqliyyat-tranzit imkanları ilə əməli töhfələr verməyə hazır olduğunu bəyan edib.

Bütün bunlar Çinin Azərbaycana marağını əhəmiyyətli dərəcədə artırır. Rəsmi Pekin onu da bildirir ki, "Bir kəmər, bir yol" təşəbbüsü dünyanın inkişafında yeni mərhələdir. Elə bu fonda "Bir kəmər, bir yol" layihəsinin reallaşması Azərbaycanın strateji hədəfləri ilə üst-üstə düşür. Belə ki, yuxarıda qeyd olunduğu kimi, Azərbaycan özünün əlverişli coğrafi mövqeyindən bəhrələnməklə tranzit imkanlarını genişləndirir. Bu mənada, ölkədə müasir nəqliyyat infrastrukturu qurulması isə layihədə Azərbaycana əlavə üstünlüklər qazandırır.

Azərbaycandakı 6 beynəlxalq hava limanı, Bakı yük terminalı, Ələt Ticarət Limanı, ən müasir yük gəmilərinə malik Xəzər dənizindəki yük donanması, 2017-ci ildə istifadəyə verilən və Avropa ilə Çin arasında ən qısa dəmir yolu bağlantısını təmin edən Bakı-Tiflis-Qars dəmir yolu xətti ölkəmizin nəqliyyat-tranzit sahəsində əldə etdiyi mühüm uğurlardır. Bu nəqliyyat-tranzit infrastrukturundan səmərəli istifadə etməklə, regionda və dünyada yük daşımalarında Azərbaycan mövqeyini daha güclü hala gətirir. Bütün bunlar Çinin də diqqətindən yayınmır. İstər Şərqdən Qərbə, istərsə də Şimaldan Cənuba gedən yolların ölkəmizdə kəsişməsi isə Çinin Azərbaycana diqqətini daha da artırır. Xatırladaq ki, "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizlərinin yaradılmasına 10-dan çox ölkə qoşulub. Ancaq bu ölkələrdən heç biri eyni zamanda hər iki dəhlizin yaradılmasında iştirak etmir. Azərbaycan isə yeganə ölkədir ki, həm Şərqdən Qərbə, həm də Şimaldan Cənuba doğru uzanan dəhlizlərin yaradılmasına və onların funksionallığının artırılmasına özünün böyük töhfələrini verir. Elə bu da Çini ölkəmizlə əməkdaşlıqda daha maraqlı



tərəf edir. Bu mənada, Cənubi Qafqaz ölkələrindən yalnız Azərbaycanın dövlət başçısının ikinci "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumuna dəvət olunması tamamilə təbii sayılır. Eyni zamanda, bu hal Çinin də "Bir kəmər, bir yol" strategiyasının icrasında Azərbaycanla əməkdaşlığı dərinləşdirmək niyyətini göstərir. Məhz belə vəziyyətdən indi işğalçı Ermənistanın böyük əndişələr duyması da özünü qabarıq büruzə verir. Qeyd edilənləri erməni şərhçi Tevos Arşakyanın açıqlamalarından da aydın görmək olar.

O vurğulayır ki, baş nazir Nikol Paşinyan Pekində keçirilən "Bir kəmər, bir yol" forumuna qatılmamaqla təkcə Ermənistanın regiondakı əhəmiyyətini təqdim etmək imkanını qaçırmadı, həm də əlverişli müqavilələr imzalamağı, investisiya axınını təmin etməyi əldən verdi: "Biz Ermənistanda tez-tez şikayətlənirik ki, ölkə iqtisadi, nəqliyyat və energetika blokadasındadır, lakin bizim bədbəxtliklərimizin səbəbi təkcə bu deyil. Hələ ötən ilin aprelində ölkədə genişmiqyaslı etirazlar keçiriləndə Nikol Paşinyan müxalifət lideri kimi bildirirdi ki, Ermənistanın blokada şəraitində inkişafı son dərəcədə çətindir, buna görə şəraitdən istifadə etmək və yükdaşıma sferasını inkişaf etdirmək lazımdır. O vaxtdan bir il keçdi, Paşinyan artıq müxalifət lideri yox, hökumət başçısıdır. Gözlənilən idi ki, o, hakimiyyətdə bu imkanlardan daha yaxşı istifadə etmək üçün çalışacaq, lakin təəssüf ki, dəfələrlə çox gözəl imkanları itirdi. Budur, Pekində keçirilən "Bir kəmər, bir yol" forumunda 37 ölkənin dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların nümayəndələri iştirak edir. Forumda iştirak edən Azərbaycan prezidenti İlham Əliyev və Rusiya prezidenti Vladimir Putin təkbətək görüş keçirdi, Azərbaycan bir sıra müqavilələrə imza atdı. Ermənistan isə forumda nəinki hökumət başçısı səviyyəsində, heç spiker səviyyəsində belə təmsil olunmadı, əvəzində təbiətin mühafizəsi naziri orada idi. Nazir Erik Qriqoryan çinli həmkarı ilə əməkdaşlıq memorandumu imzaladı. Lakin bu memorandum Ermənistanın blokadasına necə təsir göstərir? Bu, Çinin Cənubi Qafqazda nəqliyyat və energetika layihəsində Ermənistanın iştirak edəcəyi deməkdirmi? Xeyr!". Erməni şərhçi xatırladır ki, Pekində baş tutan tədbirdə 64 milyard dollar dəyərində 283 müqavilə imzalansa da, Azərbaycandan fərqli olaraq, Ermənistan bu müqavilələrdən heç bir pay ala bilməyib.

**Xatırladaq ki, forum çərçivəsində Azərbaycan və Çin şirkətləri arasında ümumi dəyəri 821 milyon dollar olan müxtəlif istiqamətlər üzrə 10 sənəd imzalanıb. Burada onu da nəzərə almaq lazımdır ki, "Bir kəmər, bir yol" layihəsi qlobal əhəmiyyət daşıyır. Bu layihə dünya iqtisadiyyatının 40, əhalisinin isə 65 faizini əhatə edir. Hesab edilir ki, bu qlobal layihə Asiya və Avropa arasındakı ticarət dövriyyəsinin artmasına yol açacaq. Bu layihə, qeyd olunduğu kimi, Azərbaycana da böyük iqtisadi dividendlər qazandıracaq. Ölkəmiz "Bir kəmər, bir yol" vasitəsilə beynəlxalq yükdaşımalardan böyük gəlir əldə edəcək.**

***Nahid SALAYEV***

# Britaniyada "Huawei" qalmaqalı... Çin şirkətilə bağlı gizli toplantını sızdıran nazir vəzifədən kənarlaşdırıldı



**Böyük Britaniyanın Müdafiə naziri Gevin Uilyamson vəzifədən kənarlaşdırılıb. Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, buna səbəb nazirin Milli Təhlükəsizlik Şurasında Çinin "Huawei" şirkəti ilə bağlı gizli toplantını mətbuata sızdırması olub.**

Britaniya baş naziri Tereza Meyin nazir Gevin Uilyamsona yazdığı məktubda "Böyük təəssüflə sizə artıq etibar edə bilməyəcəyim qənaətinə gəldim" ifadəsinə yer verilib.

**Ötən həftə Britaniya mətbuatında hökumətin 5G şəbəkəsinin inkişaf etdirilməsi üçün "Huawei" şirkətinə məhdud çərçivədə icazə verməyə hazırlaşdığına dair iddialar yer almışdı.**

Bunun ardınca Britaniya hökuməti və kəşfiyyat orqanları sözügedən məlumatların qaynağını araşdırmağa başlayıb.

Böyük Britaniyada Milli Təhlükəsizlik Şurasının iclasları həftədə bir dəfə baş nazirin rəhbərliyi altında nazirlərin, silahlı qüvvələrin və kəşfiyyat orqanlarının yüksək rütbəli əməkdaşlarının iştirakı ilə keçirilir.

İndiyə qədər Britaniya hökuməti Çin "Huawei" şirkətinin 5G şəbəkəsinin inkişafında oynaya biləcəyi rolla bağlı hər hansı rəsmi bəyanat verməyib, sadəcə, bununla bağlı yekun qərarın baharın sonunda verilməsinin planlaşdırıldığı açıqlanıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# "Həm Rusiyanın, həm də Qərbin dəstəyini itiririk - bu, Ermənistana müsbət heç nə vəd etmir..."

**Son dövrlərdə işğalçı Ermənistanda yenidən Rusiyaya qarşı çıxanların sayının artması, Kreml əleyhinə sərt fikirlər səslənməsi müşahidə olunur. Özü də bunlar Nikol Paşinyan iqtidarının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Rusiya tərəfindən daha çox təzyiqlərə məruz qaldığı bir vaxtda baş verir. Bu mənada belə fikirlər də səslənir ki, əslində, Rusiyaya qarşı sərgilənən mövqenin arxasında Paşinyan iqtidarı özü dayanır.**

Baş verənlərlə bağlı Ermənistanın "İravnuk" qəzeti yazır ki, Paşinyan Rusiyaya yarınmaq üçün müəyyən cəhdlər etsə də, Kreml bu şəxsi qəbul etmir və erməni baş nazirə inanmır. Belə vəziyyətdə Paşinyanın Rusiyaya qarşı gedişlər etmək niyyəti isə Kremli daha da qəzəbləndirir: "Rusiyada yaxşı bilirlər ki, hökumətin razılığı olmadan Kremlə qarşı sərt mövqe sərgiləmək, açıq tənqidlər etmək elə də asan məsələ deyil. Bu mənada, Ermənistanda Rusiya əleyhinə fikirlər elə İrəvanın mövqeyi kimi qəbul edilir. Təbii ki, Rusiya bunları cavabsız buraxmaq niyyətində deyil". Maraqlıdır ki, hazırda Ermənistanda Rusiyaya qarşı "Sasna tsrer" qruplaşması daha aktiv fəaliyyət göstərir. Xatırladaq ki, 2016-cı ilin yayında İrəvan polisinin post-patrul alayına hücum etmiş "Sasna tsrer" silahlı qruplaşması Nikol Paşinyanın hakimiyyətə gəlişilə əfv edilib və sonra partiyaya çevrilib. Ermənistan Respublika Partiyasının mətbuat katibi, parlamentin keçmiş vitse-spikeri Eduard Şarmazanov Paşinyaınn qruplaşma ilə bağlı siyasətini sərt şəkildə tənqid edir. O, "Sasna tsrer" qrupunun üzvlərinin azad edilməsini indiki hakimiyyətin ən böyük səhvi adlandırıb: "Sən polisə hücumu etmiş şəxsləri, terrorçuları azad etməklə öz ölkənin altına saatlı bombanı qoyursan".

Keçmiş hakimiyyət partiyasının mətbuat katibi həmçinin diqqəti buna yönəldib ki, Paşinyanın belə qruplaşmalarla işbirliyinə Rusiyada, Qərbdə heç də yaxşı baxmırlar. İndi "Sasna tsrer"in Rusiyanı xüsusi tənqid hədəfinə çevirməsi fonunda Şarmazanov dediklərinin bir daha reallığa söykəndiyini bildirir. Məsələ burasındadır ki, "Sasna tsrer"in lideri Jirayr Səfilyan Rusiyanı ölkəsi üçün ən böyük təhdidlərdən biri qismində gördüyünü vurğulayır: "Rusiya imperiyası zəifləyir və bölgəmizdən çıxma təhlükəsi ilə qarşılaşdığına görə başqa bir qanlı yolla bizi özünə birləşdirməyə çalışır. Özümüzü qorumaq üçün bu təhlükəni neytrallaşdırmağın vaxtı gəlib çatıb". Səfilyan Rusiyanın Ermənistana zərər verdiyini bildirib: "Erməni iqtisadiyyatı Rusiya iqtisadiyyatı ilə sıx bağlıdır, Ermənistanda istehlak edilən qaz Rusiyadan alınır. Rusiya qazın qiymətini Avropa qiymətləri səviyyəsində müəyyən edərsə, Ermənistan iqtisadiyyatı çökər. Moskvanın isə belə bir addım atmayacağına heç bir təminat yoxdur. Rusiya Ermənistanı silahlandırmaqdan imtina edərsə, İrəvan silah almaq üçün milyardlarla dollar sərf edən Azərbaycanla silah yarışına davam gətirə bilməz. Yəni Ermənistan Respublikası Rusiyadan çox asılıdır, bura Qarabağ məsələsi də daxildir. Ermənistan Rusiyasız Qarabağı özündə saxlamaq gücündə deyil. Rusiya isə artıq Qarabağı Azərbaycana qaytarmaq istəyir. Buna görə də Rusiyadan imtina etməyin vaxtıdır". Erməni mediası isə Jirayr Səfilyanın bəyanatının Ermənistanın təhlükəsizliyini və Rusiya ilə münasibətləri təhdid etdiyini bildirib.

Müqəddəratı Təyinetmə Birliyinin lideri Paruyr Ayrikyan isə bildirir ki, Paşinyan təkcə Rusiya yox, ABŞ-la da münasibətlərə ciddi ziyan vurmaqdadır: "Baş nazir bu günlərdə öz müsahibəsində qeyd edib ki, indiki hökumət qədər heç kim ABŞ-ı tənqid etməyib. O bununla rusiyalı quldarlarına yarınmaq istəyir, çünki heç bir normal adam belə şey deməzdi. Bu, xəstə bəyanatdır. Ermənidə balanslaşmış yanaşma olmalıdır. Amma russevərliyi xarici siyasət yönü kimi yaraqlanmağa götürən adamdan başqa şey gözləmək mümkün deyil. O deyir ki, biz balanslı siyasət aparırıq, amma bu onun yalan bəyanatlarından biridir. Sən Avrasiya İqtisadi Birliyinin üzvüsənsə, balanslı siyasəti necə apara bilərsən? Bax, bu səbəblərdən ABŞ Ermənistanla münasibətlərin inkişafına heç də ciddi maraq göstərmir. Paşinyanın Rusiyaya yarınmaq cəhdləri də iflasa uğrayıb. Moskva əvvəldən onu Qərbin adamı sayıb və fikrində də qalmaqdadır. Belə vəziyyətdə biz həm Rusiyanın, həm də Qərbin dəstəyini itiririk. Bu, iqtisadiyyatdan tutmuş Qarabağ məsələsinə qədər Ermənistana müsbət heç nə vəd etmir".

Beləliklə, yuxarıda qeyd edilənlərdən göründüyü kimi İrəvanın Rusiya ilə münasibətləri heç də yaxşı deyil. Respublika Partiyasının sədr müavini Armen Aşotyan bunun günahının məhz indiki baş nazirin üzərinə düşdüyünü vurğulayır. Onun sözlərinə görə, Paşinyan Rusiya ilə münasibətləri ardıcıl şəkildə pisləşdirməkdədir. Ümumiyyətlə, Nikol Paşinyan baş nazir olandan hərəkətləri Moskvanı təəccübləndirir və qıcıqlandırır. Ermənistan iqtidarı bütün istiqamətlərdə Rusiyanın maraqlarına uyğun gəlməyən addımlar atır. Onlardan daha çox narahatlıq doğuranı əvvəlki kimi yen ədə antirusiya əhval-ruhiyyəli kadrlara yüksək vəzifələrin verilməsi və paralel olaraq Ermənistanda Rusiyanın dayaqlarının laxladılmasıdır. Hər iki məqamla bağlı Rusiya tərəfi bir neçə dəfə mövqeyini bildirib və Paşinyan hakimiyyətinə xəbərdarlığını edib. Buna baxmayaraq, Paşinyan Kremlə zidd olan siyasətini davam etdirməkdədir. Rusiyalı politoloq Andrey Yepifantsev bu xüsusda bildirir ki, Paşinyanın Ermənistanın xarici siyasətini iflasa uğradıb: "Hazırda Ermənistanda situasiya çox çətindir. Onun Moskva ilə münasibətləri problemlidir, Qərblə sürətli yaxınlaşmaq ideyası isə alınmayıb. Paşinyan çalışır ki, çox incə oyun oynayaraq həm Qərblə yaxınlaşsın, həm də Moskvadan uzaqlaşmasın. Bu isə mümkün deyil. Digər tərəfdən, Azərbaycan beynəlxalq münasibətlərdə, Avropa bazarına enerji daşıyıcılarının tədarükündə vacib halqa olaraq qalır. Belə şəraitdə İrəvan öz mövqeyini Qarabağ məsələsində necə yaxşılaşdıra bilər? Paşinyanın nə isə bacaracağına inanmıram. Əvəzində Azərbaycan beynəlxalq oyunçuların İrəvana təzyiqlərinin artmasına nail olmaqdadır. Onlar Paşinyanı yumşaq və diplomatik şəkildə yerinə oturmağa məcbur edəndə, İrəvanın mövqeyində bəzi korreksiyalar olacaq. Lakin hələlik bunun Ermənistanın daxilində necə qəbul ediləcəyi bəlli deyil. Xatırlatmaq istəyirəm ki, Paşinyanı inqilabi dalğa Qarabağla bağlı mövqeyi hər zaman sərt olduğuna görə yüksəyə qaldırdı. Bu hər zaman ictimai fikrin xoşuna gəlib. İndi yaranan əsas sual Paşinyanın bu mövqeyini yumşaltmağa məcbur edəndən sonra ölkə vətəndaşlarının buna necə yanaşacaqlarıdır. Mənim fikrimcə, bu, heç kim üçün yaxşı olmayacaq".

Beləliklə, real durum göstərir ki, bütün cəhdlərinə rəğmən, Paşinyanın addımları Rusiya ilə münasibətləri daha da gərginləşdirir, onun çox güvəndiyi Qərbdən isə İrəvana yönəlik heç bir dəstək addımları yoxdur. Bununla da Paşinyan onsuz da zəif olan Ermənistanı meydanda müttəfiqsiz və tək buraxmış olur. Bunu ABŞ-ın Karnegi fondunun aparıcı elmi əməkdaşı Paul Stronski də xüsusi olaraq vurğulayır. O, Paşinyanın Rusiyadan savayı hələ ABŞ-ın da etimadını qazana bilmədiyini qeyd edərək, belə vəziyyətinVaşinqtonda xoş qarşılanmadığını vurğulayır: "Ermənistanın baş naziri xarici siyasətdə ciddi səhvlər buraxmaqda davam edir. Nikol Paşinyan işləməyə başlamalıdır və ABŞ-la siyasi oyun oynamağa son qoymalıdır". Ekspert bildirib ki, ABŞ 2008-ci ildə Köçəryan və Sarkisyan hakimiyyətindən narazı olub və buna görə də "Minilliyin çağırışı" layihəsinin maliyyələşdirilməsini dayandırmışdı. Paul Stronski xatırladır ki, Birləşmiş Ştatlar hakimiyyət dəyişikliyindən sonra Ermənistana yardımını əhəmiyyətli dərəcədə artırmağı düşünsə də, Paşinyanın addımları buna imkan vermir: "6 ay ərzində Ermənistan əlavə maliyyələşdirmə kimi ABŞ-dan 14 milyon dollar alıb. Əslində, ABŞ Ermənistana 1992-ci ildən bu yana keçən il ən yüksək məbləğ olan 25 milyon dollar ayırıb. ABŞ Paşinyan hökuməti siyasət prioritetlərini təyin edəcəyi və onların proqramının aydın olacağı anda daha çox verməyə hazırdır. Lakin Paşinyan bunu edə bilmir və ABŞ ondan uzaq düşür". O, həmçinin, Ermənistanın Suriyadakı humanitar missiyası məsələsinə də toxunaraq, Suriyadakı erməni istehkamçıların ruslarla birlikdə olmasının ABŞ üçün böyük bir məsələ olduğunu qeyd edib. Ekspertin sözlərinə görə, Ermənistan, Qazaxıstan, Qırğızıstan və Belarus uzun müddət Suriyaya qüvvələr göndərmək üçün Rusiya təzyiqinə müqavimət göstərib, amma bu günə qədər Ermənistan buna razılaşan yeganə ölkədir: "Birləşmiş Ştatlar bu mina təmizləyənləri Ermənistanda mina təmizlənməsi üçün ABŞ-ın uzunmüddətli dəstəyi kimi hazırlamışdı.

Bu, Ermənistana verilən 1 milyard dollarlıq yardımın bir hissəsidir. Ona görə də, onların Suriyada Rusiya ilə birlikdə yerləşdirilməsi amerikalı auditoriya üçün xüsusilə pis görünür". Stronski Qərbə heç bir mesajın verilmədiyini vurğulamaqla yanaşı, Ermənistanın avropalı və amerikalı tərəfdaşları üçün necə görünəcəyinin dərk edilmədiyini də əlavə edib: "Paşinyanın işi var və o, ABŞ-ı günahlandırmalı deyil. Yəni öz işini görməlidir. Əks təqdirdə bunun nəticələrinə hazır olmalıdır. ABŞ səhəri gün Azərbaycanla münasibətləri daha da genişləndirəndə, artıq bu, Ermənistanda narazılıqla qarşılanmalı deyil".

Bütün bunlar Paşinyanın həm Rusiya, həm də ABŞ dəstəyindən tədricən məhrum olduğunu üzə çıxarır. Aydındır ki, belə vəziyyət Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına da təsirsiz ötüşməyəcək. Ən azı o baxımdan ki, Ermənistandan fərqli olaraq, Azərbaycanla münasibətlərin inkişaf etdirilməsi Rusiya və ABŞ-ın maraq dairəsində yer alır. Məhz bu vəziyyətdə hər iki tərəf Azərbaycanla əlaqələrin daha yüksək səviyyəyə çatdırılmasının Qarabağ məsələsinin çözümündən keçdiyini də yaxşı bilir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Radikalların Bakıda səmərəsiz mitinqlər taktikasından hələ bezmədiklərinə daha bir sübut...

**Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) Milli Şuranın mayın 5-nə, Qarabağ Komitəsinin isə mayın 4-nə təyin etdiyi mitinqlə bağlı müraciətlərini cavablandırıb. Qurumun yaydığı məlumatda bildirilir ki, BŞİH-də müraciətlərə baxılıb və hər iki siyasi qurumun İdman Sağlamlıq Kompleksinin stadionunda (keçmiş "Məhsul") mitinq keçirməsinə razılıq verilməyib.**




***Eldəniz Quliyev:** "... icazəsiz aksiya keçirməyə cəhd etməyəcəyik"*

***Xəzər Teyyublu:** "Bu, bir partiyanın mitinqi deyil"*

***Məhərrəm Zülfüqarlı:** "Sadəcə, kimin müxalifətdə lider olduğunu sübut etmək istəyirlər"*

Bu barədə mitinq təşkilatçıları məlumatlandırılıb.

Çox maraqlıdır, niyə müxalif mövqeli qurumlar bir gün fərqlə ayrı-ayrılıqda mtinq keçirmək istəyirlər və belə aksiyaların birlikdə keçirilməsi məqbul olmazdımı? Mitinqə icazə verilməyibsə, təşkilatçılar hansı addımları atmağı planalaşdırırlar?

**Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü Eldəniz Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, meriyanın artıq neçənci dəfədir dinc aksiya keçirməklə bağlı müraciətə mənfi cavab verməsi onları təəccübləndirir:** "Bu, insanların sərbəst toplaşma azadlığının məhdudlaşdırılması anlamına gəlir. Azad və sərbəst toplaşmaq insanların fundamental haqqıdır. Mən başa düşə bilmirəm, niyə həmin tədbirə icazə vermirlər? Artıq neçənci dəfədir bizim müraciətimizə mənfi cavab verilir. Buna baxmayaraq, icazəsiz aksiya keçirməyə cəhd etməyəcəyik. Səbrlə, qanun çərçivəsində aksiyamızın keçirilməsinə çalışacağıq. Bu yolla da addımlayacağıq. Biz may ayının 11-i üçün də mitinq keçirmək istəyimizi bəyan etmişik. Hər halda, divanın bitdiyi yerə gəlib çatacağıq. Görək həmin günlə bağlı nə deyəcəklər? Mitinqlərin bir yerdə keçirilməməsi lap yaxşı olar. Bizim mitinqdə kiminsə iştirakı üçün məhdudiyyət qoyulmur. Mahiyyəti ümumxalq aksiyasıdır. Kim istəyir, iştirak edə bilər. Qarabağ Komitəsinə icazə versələr, şəxsən mənim özüm onların mitinqində iştirak edərəm. Mitinqin may ayına təyin olunması heç bir əlamətdar günlə bağlı deyil. Bilirsiniz ki, biz 19 fevraldan sonra, demək olar, bəzi istisnalar olmaqla hər həftə etiraz aksiyasının keçirilməsi üçün müraciətlər etmişik".

**Qarabağ Komitəsində təmsil olunan Klassik Xalq Cəbhəsi Partiyasının funksioneri Xəzər Teyyublu qəzetimizə bildirdi ki, gərək meriya Qarabağ adı ilə keçirilən mitinqə icazə verərdi:** "Biz qadağaya təəccüb etdik. Hansı addımların atılacağı ilə bağlı konkret nəsə deyə bilmərəm. Çünki Komitə kollegial formada qərar verir. Orda bir neçə qurum təmsil olunur. Mitinqlərin ayrı-ayrılıqda keçirilməsi də təəccüblü deyil. Çünki biz Qarabağın azad olunması tələbi ilə mitinq keçirirk. Kim istəyirsə, gəlib orada iştirak edə bilər. Elə bir siyasi təşkilat yoxdur ki, Qarabağın azadlığını istəməsin. Bu, bir partiyanın mitinqi deyil. Yəqin ki, gələcək addımlarımızla bağlı qurumun toplantısından sonra konkret qərar veriləcək. May ayında keçirməyimiz də adi qaydada olan bir məsələdir. Xüsusi təqvim günü seçməmişik".

Müstəqil ekspert, **professor Məhərrəm Zülfüqarlı qəzetimizə bildirdi ki, bu cür mitinqlərin mahiyyəti hamıya bəllidir:** "Dağlıq Qarabağ mövzusu hamının yaralı yeridir. Bu tələblərlə keçirilən mitinqdə iqtidar və müxalifət birgə təmsil olunmalıdır. Müxalifətdə müxtəlif ideologiyanın daşıyıcıları var. Solçular, sağçılar, sol radikallar, sağ radikallar və başqaları var. Onların müəyyən məsələyə fərqli yanaşması mümkündür. Çox qəribədir ki, eyni ideologiyanın daşıyıcıları olan partiyalar belə, eyni məzmunlu tələblə ayrı-ayrılıqda mitinq keçirirlər. Bunların da hamısı mənəm-mənəmlikdən irəli gəlir. Bununla ciddi nəticəyə, hakimiyyət dəyişikliyinə nail olmaq istəmirlər. Sadəcə, kimin müxalifətdə lider olduğunu sübut etmək istəyirlər. Ana müxalifət olmaq uğrunda mübarizədə mitinqləri vasitə olaraq seçirlər. Amma ana müxalifət parlamentdə tutulan yerlərə görə müəyyən olunur. Bizim parlamentdə isə əksər yerlər YAP deputatlarına məxsusdur. Ən çox mandat əldə edən partiyanın iki yeri var. Təəssüflə deməliyəm ki, bu tip mitinqlərlə nəyəsə nail olmağın zamanı çoxdan keçib".

***Məhəmmədəli QƏRİBLİ***

# ABŞ-ın İran neftinə tam ixrac qadağası işə düşdü - ilk gün nələr ortaya çıxdı...

**ABŞ-ın İrana qarşı sanksiyaları nəhayət ki, tətbiq olunduğu gündən yarım il sonra tam qüvvəsi ilə işə düşdü. Çünki Vaşinqton mayın 2-dən İran neftinin idxalına müvəqqəti icazənin müddətini uzatmamaq qərarına gəlib. O baxımdan sanksiyalar artıq işə düşdü.**

*"Çin və Hindistanın İranla bir sıra əməliyyatları var"*

***İlham Şaban:** "Sanksiyaların işə düşməsi bazarda qiymətlərə təsir etməyib"*



Bu həm də o deməkdir ki, ABŞ hökumətinin İrandan neft alan ölkələrə tətbiq etdiyi güzəştin müddəti bitdi. Bir neçə aydır bu imtiyaza sahib olan səkkiz ölkə - Türkiyə, Çin, Hindistan, Cənubi Koreya, İtaliya, Yunanıstan, Yaponiya və Tayvan artıq İrandan neft almaqdan imtina etməlidirlər. Üstəlik, həmin ölkələrə tövsiyə edilir ki, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirliklərindən neft alsınlar. Bu qərara etirazlar çoxdur. Ancaq İtaliya, Yunanıstan və Tayvan Amerikanın dediyinə əməl edirlər. Digərləri isə hələlik direniş göstərirlər.

Sözügedən qərardan sonra OPEC+ sazişinin iştirakçı ölkələri Tehrana qarşı sanksiyalar səbəbindən bazarda yarana biləcək istənilən boşluğu öz neftləri ilə doldurulacaqlarına dair bəyanatlar vermişdilər. Bununla yanaşı, Birləşmiş Ştatların özü də bazarda yanacaq defisitinə yol verməyəcəyini vəd edib.

Maraqlıdır, artıq sanksiyalar tam işə düşdü. Bunun bazarda ilkin nəticələri varmı? Bundan sonra dünya bazarında neftin qiyməti ilə bağlı nə gözlənir?

**Məsələyə münasibət bildirən Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şabanın sözlərinə görə, sanksiyaların işə düşməsi bazarda qiymətlərə təsir etməyib:** "Bundan sonra sözügedən 8 ölkənin İrandan neft idxalını sıfırlaması əməliyyatı gözlənir. Ancaq reallıqda, faktiki olaraq, bu mümkünsüzdür. Ona görə ki, həm Çin Xalq Respublikasının, həm də Hindistanın İranla bir sıra əməliyyatları var. Həmin əməliyyatları da, ümumiyyətlə, birbaşa idxal hesab etmək olmaz. Nəticə etibarilə belə olduğundan, həmin ölkələr İrandan neft idxalını bundan sonra da davam etdirəcəklər. Nəyə görə? Ona görə ki, Çinin dövlət şirkəti İrana 2 milyard dollardan çox investisiya qoyub və xidmət müqaviləsi imzalayıb. Bunun əvəzini vəsait şəklində deyil, neft şəklində öz gəlirini götürməlidir. O cümlədən də Hindistanın İranla geniş ticari əlaqələri var. Bu ölkənin qeyri-neft sektoruna yatırımları var və bunun əvəzini neftlə götürür. Bütün bunlar, faktiki olaraq, həmin ölkələrin birbaşa İrandan neft idxalı demək deyil. Sadcə olaraq, İrandan alacaqları var. Gündəlik olaraq Çin 110, Hindistan 100 min barrel neft alır. Ona görə sanksiyaların İrana praktiki təsiri yoxdur. Sanksiya səbəbindən neftin bahalaşması gözlənilmir.

Ona görə ki, neftin qiyməti 75 dollara qədər bahalaşdı. Sonra korreksiya edib 73 dollara düşdü. O üzdən, elə bir bahalaşma gözlənilmir".

***Vidadi ORDAHALLI***

**Qeyri-neft sektorunda real vəziyyətin təhlili bu istiqamətdə hökumətin hədəflərinə daha sürətlə yaxınlaşmaqda olduğunu göstərir. Hazırda qeyd olunan müstəvidə ən dinamik inkişaf edən istiqamətlərdən biri isə turizmdir. Belə görünür ki, görülən tədbirlər nəticəsində iqtisadiyyatda turizmin xüsusi çəkisi artmaqda davam edəcək və bu sahə Azərbaycana valyuta axınının yüksəlməsində daha mühüm rol oynayacaq.**

# Azərbaycan dünyanın 20 turizm məkanından birinə çevrilmək imkanlarında...



Hazırda müvafiq addımlar nəticəsində Azərbaycana üz tutan əcnəbilərin sayının artması da turizm sahəsində mühüm uğurlardan sayılır. Ötən il və cari ilin ilk rübünün nəticələri də turizm sektorunda mühüm irəliləyişlərdən xəbər verir. Hesablamalara görə, 2018-ci ildə Azərbaycana dünyanın 196 ölkəsindən 2.9 milyon və ya əvvəlki illə müqayisədə 5,7 faiz çox turist gəlib. Bu ilin ilk rübünün nəticələri də ötən ilin analoji dövrü ilə müqayisədə artım olduğunu göstərir və artımın davam edəcəyi proqnozlaşdırılır. Xatırladaq ki, Prezident İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə vurğulanır ki, mövcud imkan və potensialdan səmərəli istifadə etməklə Azərbaycan 2025-ci ilədək həm regionda, həm də digər dünya ölkələri arasında cəlbedici turizm məkanlarından birinə çevriləcək. 2025-ci ildən sonrakı dövr üzrə perspektiv isə ölkəni dünyada turistlərin ən çox üstünlük verdiyi 20 turizm məkanından birinə çevirməkdir.

Bu məqsədə əsasən dörd hədəf müəyyənləşdirilib. Birinci hədəf Bakının turizm potensialından tam istifadə edilməsi, ikinci hədəf milli səviyyədə daha yaxşı idarəetmənin təşkili, turizm və rekreasiya zonalarının yaradılması, mövsümiliyin aradan qaldırılması üçün regional səviyyədə turizm infrastrukturunun inkişafı, hava əlaqələrinin yaxşılaşdırılması, viza prosedurlarının sadələşdirilməsi də daxil olmaqla turizm sektorunun inkişafı üçün ölkə üzrə əlverişli mühitin formalaşdırılmasıdır. Üçüncü hədəf regional turizm təşəbbüslərini həyata keçirməklə Azərbaycanda turizmi inkişaf etdirmək, dördüncü hədəf isə turizm sahəsində təhsil proqramlarına investisiya qoyuluşunu həyata keçirmək və turistlərin məmnunluğunu artırmaq üçün standartlaşdırma və sertifikatlaşdırma sistemini təkmilləşdirməkdir. Nəticə etibarı ilə səyahət və turizm sənayesinin Azərbaycanın ümumi daxili məhsuluna birbaşa təsirinin artıq milyardlarla dollar olacağı gözlənir.

Hazırda diqqət mərkəzində olan əsas hədəf Azərbaycana daha çox əcnəbi axınını təmin etməkdir. Bu xüsusda Rusiya, Avropa və Ərəb ölkələri, Çin, Hindistan, Pakistan və digər çoxmillətli ölkələrlə işbirliyi də xüsusi maraq dairəsində yer alır. Hazırda ölkəmizə daha çox turist Rusiyadan gəlir. Ötən il Rusiyadan Azərbaycana 870 mindən çox turist səfər edib. Cari ilin ilk 3 ayı ərzində isə 167 mindən çox rusiyalı ziyarətçi Azərbaycana gəlib. Ümumiyyətlə, Rusiya Azərbaycanın turizm bazarının əsas iştirakçılarından biridir. Ərəb turistlərinin axınının davamlı olması da əsas diqqət hədəfindədir. Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmidt "The National" saytına müsahibəsində bildirir ki, Azərbaycan nəqliyyat və ticarət əlaqələrinin gücləndirilməsilə Körfəz ölkələrindən gələn turistlərin sayında 20 faiz artıma nail olmağı hədəfləyir. O bildirib ki, 2018-ci ildə Azərbaycana gələn ərəb turistlərin sayı 30 faiz artaraq 200 min nəfərə çatıb: "Bu, ümumilikdə ölkəyə gələn 2,8 milyon turistin 8 faizi deməkdir. Ərəb körfəzi ölkələri Azərbaycana turist axınına görə Rusiya və Gürcüstandan sonra üçüncü yerdədir. Ərəb turistlərin sayının 2019-cu ildə daha da artacağı və 240 minə çatacağı təxmin edilir".

Baş icraçı direktor qeyd edib ki, Körfəz ölkələri Azərbaycan üçün olduqca vacib bazardır. Güclü mədəni əlaqələr və birbaşa aviareyslər turist axınına əsas verir: "Son iki ildə Körfəz ölkələrinin "Emirates", "Etihad Airways", "Flydubai" və "Air Arabia" kimi aviaşirkətləri Bakı və Qəbələyə birbaşa xətlər açıb. Azərbaycan, sürətlə böyüyən daşınmaz əmlak, istehsal və xidmət sənayelərinə investisiya yatıran potensial müştərilər də daxil olmaqla, Körfəz ölkələrindən biznes turizmi də cəlb etməyi planlaşdırır". Azərbaycanın əsas istəklərindən biri Çin tursitləri ilə bağlıdır. Çin tursitləri, əslində, bu gün bütün ölkələrin diqqət mərkəzində yer alır. Qeyd edək ki, ötən il 149,72 milyon Çin vətəndaşı xaricə turist səfərinə gedib. Bu rəqəm 2017-ci ildəki göstəricidən 14,7 faiz çox olmaqla bərabər, Çinin xaricə gedən turistlərin sayına görə dünya liderliyini də qoruyub. Son 7 ildə xarici ölkələrə turist kimi ən çox səfər edənlərin sayına görə çinlilər birinci yerdədir. Qlobal turizm dövriyyəsinin təxminən 15 faizə yaxını çinli turistlər tərəfindən təmin edilir. Çinlilər arasında xaricə səfərlərin çoxalmasına səbəb son illər əhalinin gəlirlərinin artması və bir çox ölkələrin Çin vətəndaşları üçün viza rejimini sadələşdirməsidir. Qeyd edək ki, son vaxtlar Çindən Azərbaycana da turist səfərlərinin sayında böyük artım müşahidə olunur. Hazırda Bakı ilə Pekin və Urumçi şəhərləri arasında birbaşa hava əlaqəsinin mövcudluğu, Çin vətəndaşları üçün 2016-cı ilin fevralından etibarən sadələşdirilmiş viza rejiminin tətbiqi, "Asan Viza" sisteminin fəaliyyəti çinli turistlərin Azərbaycana səfər imkanlarını genişləndirib. Ölkəmizə daha çox Çin turistlərinin cəlb olunması məqsədilə ötən ilin dekabrından etibarən Çində Azərbaycan Turizm Bürosunun rəsmi nümayəndəliyi fəaliyyətə başlayıb. Azərbaycanla Çinin turizm sahəsində əməkdaşlığını dərinləşdirmək üçün iki ölkənin uyğun dövlət qurumları arasında müvafiq sənədin imzalanması da nəzərdə tutulub. Hindistan və Pakistandan, eləcə də Avropadan ölkəyə gələn turistlərin sayında artım var.

Eyni zamanda görünən həm də budur ki, xidmət sektorunun inkişafına mühüm təkan verən turizm Azərbaycana valyuta gətirən əsas sahələrdən birinə çevrilir. Aparılan hesablamalara görə, xarici qonaqlar ölkəmizdə təkcə ötən il 2 milyard dollar pul xərcləyib. Cari ildə bu rəqəmin 2,5 milyard dollara çatması proqnozlaşdırılır.

***Tahir TAĞIYEV***

Aprelin 30-da saat 22.00 radələrində Nizami rayonu, M.Əliyev küçəsində Mahir Əsədov idarə etdiyi "Range Rover" markalı 90 OG 002 nömrəli avtomobillə şəxsiyyəti məlum olmayan piyadanı vuraraq yolun hərəkət istiqamətinə atıb, eyni yolda hərəkətdə olan Seyhun Məmmədovun idarə etdiyi "Mercedes" markalı 90 GT 562 nömrəli avtomobil isə həmin şəxsin üzərindən keçib və hadisə yerindən qaçıb.

***DYP rəsmisi:** "Ola bilər ki, bu fotoşop olsun"*

***Ərşad Hüseynov:** "Kompleks mübarizə aparılmalıdır ki, gələcəkdə bəzi harınlar bizi, övladlarımızı təkərlərinin altına salıb hadisə yerindən qaçmasınlar"*

# Bakıda güzgülü avtomobil nömrələri - piyada vurub qaçan oliqarxlar və onların "gül balaları"...



Ağır vəziyyətdə olan piyada 3 saylı Şəhər Klinik Xəstəxanasına yerləşdirilib. Faktla bağlı cinayət işi başlanıb, istintaq davam etdirilir. Məlum olub ki, həmin sürücü "90 OG 002? dövlət nömrə nişanını "Mercedes" və "Audi" markalı avtomobildə də istifadə edir. Özü də eyni vaxtda. Bu barədə sosial şəbəkələrdə həmin sürücü tərəfindən fotolar nümayiş etdirilir. Artıq sosial şəbəkələrdə sürücünün kimliyi ilə bağlı maraqlı məlumatlar yayılıb. Məlum olub ki, Mahir Əsədov Bakının əsasən zənginlərin məskəni olan "Vorovski" qəsəbəsində yaşayır, bizneslə məşğul olduğu, "Ağ şəhər"də binalar inşa etdiyi deyilir və onu qəsəbədə çox nüfuzlu biri kimi tanıyırlar.

Səhiyyə Nazirliyinin mətbuat katibi Pərviz Abubəkirov bildirib ki, Bakının Nizami rayonunda 90 OG 002 dövlət nömrə nişanlı "Range Rover" avtomobili ilə vurulmuş piyadanın vəziyyəti olduqca kritikdir, həyati təhlükəsi var. 3 saylı şəhər xəstəxanasına gətirilən yaralının başında zərbədən hematoma yarandığı müəyyən edilib, təcili əməliyyat olunub. Göstərilən tibbi yardımlara baxmayaraq, vəziyyəti olduqca ağır qiymətləndirilir".

Xatırladaq ki, oliqarxların törəmələrinin eyni dövlət nömrə nişanını çoxsaylı avtomobil kolleksiyasında yer alan müxtəlif avtomobillərə yapışdırması geniş yayılmış haldır. Dəfələrlə bu barədə faktlar, görüntülər yayılıb. Eyni zamanda, imkanlı adamların bahalı avtomobillə qəza törədib hadisə yerindən qaçması daha çox yayılıb. Analoji hadisə bir müddət əvvəl paytaxtda baş verdi. Şəhid qızını bahalı avtomobillə vurub öldürən şəxs də çox imkanlı bir adamın övladı çıxdı. Maraqlıdır, əlaqədar qurumlar eyni nömrənin eyni seriya ilə müxtəlif avtomobillərin üzərinə vurulması ilə niyə mübarizə aparmır?

Baş Dövlət Yol Polisi İdarəsinin (DYP) şöbə rəisi, polis polkovnik-leytenantı Rüfət Quliyev açıqlamasında eyni dövlət nömrə nişanının müxtəlif avtomobillərdə istifadə olunması faktının araşdırılacağını deyir: "Ola bilər ki, bu fotoşop olsun. Çünki indi elə dövrdür ki, texnika vasitəsilə nömrəni dəyişdirmək, üzərinə başqa nömrə yapışdırmaq mümkündür. Biz bu barədə araşdırma aparacağıq və araşdırmadan sonra məsələyə hüquqi qiymət verilə bilər".

**Nəqliyyat məsələləri üzrə ekspert Ərşad Hüseynov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, eyni seriya və nömrəli dövlət nişanlarını müxtəlif markalı maşınlara vurmaq qanunvericiliklə qadağan edilir:** "Elə nömrələr də buna görə verilir ki, alternativi olmasın. Ona görə də müxtəlif kombinasiyalı nömrələrdən istifadə edilir. Bunu hüquq-mühafizə orqanları araşdırmalıdır. Baş verən analoji hadisələrin araşdırılmasını yalnız DYP-nin üzərinə qoymaq lazım deyil. Görürsünüz ki, əksər belə hallar insan tələfatı ilə nəticələnir. Artıq burada cinayət işi var. Onun araşdırılması çərçivəsində bütün detallar nəzərdən keçirilməlidir. Fikir verirsinizsə, əksər hallarda harın həyat tərzi keçirən adamlar qəzaları bahalı avtomobillərlə törədirlər. Götürək ki, qəza hamının başına gələ bilər: varlının da, kasıbın da. Amma məhz həmin kateqoriyadan olan adamlar əksər hallarda hadisə yerindən qaçırlar. Bütün bunlar harınlığın əlamətidir. Çinayət işi çərçivəsində müxtəlif qurumları da cəlb edə bilərlər. Cinayət Prossesual Məcəllədə belə bir müddəa var ki, cinayətin törədilməsinin şəraiti, səbəbi araşdırılmalıdır. Bu kontekstdə, harınlığın səbəbi, kimin övladı olduğu, onu hadisə yerindən qaçmağa vadar edən adamlarla da bağlı araşdırmalara gedilməlidir. Qoy tam aşkara çıxsın ki, onlara kim belə təlimat verir. Kim onlara deyir ki, ürəyiniz nə istəyir edin, arxanızda biz durmuşuq? Bu dəqiqə elə texniki vasitələr var ki, avtomobillərin nömrəsini görür və onu identikləşdirir. Yəni dərhal müəyyən edə bilir ki, filan nömrə hazırda "Mercedes"in üzərindədir, amma əslində başqa markaya verilib. Həmin avtomobil sahiblərinin necə məsuliyyətdən yayınması da dəqiq araşdırılmalıdır. Yəni bunun qarşısını almaq elə də çətin deyil. Bu cür hallarla kompleks mübarizə aparılmalıdır ki, gələcəkdə bəzi harınlar bizi, övladlarımızı təkərlərinin altına salıb hadisə yerindən qaçmasınlar".

***Məhəmmədəli QƏRİBLİ***

Sosial şəbəkələrdə Kürdəmirin Sığırlı kəndindəki C.Əsgərov adına tam orta məktəbdə qızların təhsildən yayınma halları, müəyyən sinifdən sonra məktəbdən uzaqlaşdırıldıqları haqda məlumatlar yayılıb. Bu barədə bir sıra sosial şəbəkə istifadəçiləri aşağıdakı fikirləri paylaşıblar:




# Kürdəmirin Sığırlı kəndini sosial məkanda daha da məşhurlaşdıran qalmaqal...

***Sığırlı kənd bələdiyyəsi - Saleh Ağamalıyev:** "Kəndin 90 faiz qızlarının məktəbə davamiyyəti əladır"*

***Sığırlı kəndindəki C.Əsgərov adına tam orta məktəb - Bəycan Mürşüdov:** "Qızların məktəbə gəlib-getməsinə valideynlər tərəfindən heç bir maneə törədilmir"*

"Kürdəmirin Sığırlı kəndindəki C.Əsgərov adına tam orta məktəbdə qızlar çox ciddi təhsil məhdudiyyətləri yaşayırlar. Belə ki, ibtidai sinfi bitirmiş, on yaşdan başlayaraq bütün qızlar beşinci sinifdən etibarən evə qapadılır, təkbaşına həyətdən küçəyə belə çıxışına icazə verilmir. Çünki hər an qaçırılma təhlükəsi qarşısındadırlar. Valideynlərin edə biləcəyi və guya çıxış yolu qızları təhsildən yayındırmaqdır. Hətta təhsil almaq istəyən ailələr kənddən köçürlər. Bu isə çox az hallarda baş verir. Çünki oxumuş istənilən qıza əxlaqsız gözü ilə baxırlar. Müəllimlər isə dərslərdə iştirak etməyən bütün qızlara "iştirak edirlər" və saxta qiymətlər yazırlar. Orta məktəbin buraxılış imtahanlarına belə buraxılmırlar və ya imtahana hamilə halda gedirlər. Qızların təhsildən yayındırılmasının heç bir kapital tərəfdən səbəbiyyəti yoxdur. Kənd əhalisi normal maddi şəraitdə yaşayırlar. Sadəcə, qızlara qarşı ciddi təzyiqlər və istismar var. Onlar artıq yeniyetmə yaşdan, 18 yaşa çatmamış evləndirilir".

Sosial şəbəkədə yayılmış bu məlumat diqqətimizi cəlb etdiyi üçün, onu araşdırmaq qərarına gəldik.

Kürdəmirin Sığırlı kənd C.Əsgərov adına tam orta məktəbinin direktoru Bəycan Mürşüdov bildirdi ki, 9-cu sinifdən sonra qızlar təhsillərini davam etdirmirlər: "Valideynlərin qızları oxumağa qoymaması ilə bağlı deyilənlər yalandır. Hazırda məktəbimizdə 95 qız təhsil alır. 9-cu sinfə qədər təhsil məcburidir. Amma 10-11-ci siniflərdə təhsil könüllü olduğu üçün, qız şagirdlərinin sayı azdır. Yuxarı siniflərdə hər qrupda 3-4 qız var. 9-10-cu sinifdən çıxıb, texnikuma gedən qız şagirdlər də var. Keçən il yuxarı siniflərdə 7 qız var idi. Onlardan 6-sı ali məktəbə qəbul olundu. 582 balla Qaybalıyeva İlahə Daşdəmir qızı İqtisad Universitetinə qəbul olundu".

Direktor onu da qeyd etdi ki, qızların məktəbə gəlib-getməsinə valideynlər tərəfindən heç bir maneə törədilmir: "Son 5 ildə məktəb şagirdlərindən qaçırılan və ya ailə quran da olmayıb".

Sığırlı kənd bələdiyyəsinin sədri Saleh Ağamalıyev bizimlə söhbətində yazılanların real olmadığını dilə gətirdi. Onun sözlərinə görə, kəndin 90 faiz qızlarının məktəbə davamiyyəti əladır: "Düzdür, gəlməyənlər də var. Amma bunu bütün qızlara şamil etmək olmaz. Hər il kollec və ali məktəblərə qəbul olunan qızlarımız var. Neçə il öncə ali məktəbi bitirib gələn qızlarımız da çoxdur. Hazırda universitetə qəbul olunmaq istəyən qızlar hazırlaşırlar. 450-500 bal toplayan qızlarımız olub. Ötən il qəbul olan qızlarımızın adlarını da çəkə bilərik. Qafarlı Aydan, Cəlilova Zeynəb və adlarını unutduğum bir neçə qız ötən il qəbul olunub".

***Günel CƏLİLOVA***

**Zəngin tarixi salnamələr fəth edərək, uzun illər pambığın əkilib-becərilməsində böyük təcrübə toplamış və nəticədə gözəl ənənələr yaratmış Azərbaycan dünyanın qabaqcıl pambıqçılıq ölkələrindən biri kimi tarixə düşüb.**

*"Pambıqçılığı pambıq sahələrini genişləndirməklə, ekstensiv yolla inkişaf etdirmək mümkün deyil"*

# Pambıq sahələrinin azalması kənd təsərrüfatının problemlərindən biri kimi...

***Vahid Məhərrəmov:** "Pambıq əkin sahələrinin azalmasının səbəbi vaxtında düzgün qiymətləndirmə aparılmamasıdır"*



XX əsrin II yarısında ümummilli lider Heydər Əliyevin rəhbərliyi dövründə pambıqçılıq strateji əhəmiyyətli sahə kimi sürətlə inkişaf edib, illik pambıq istehsalı bir milyon tona çatdırılaraq, ölkəmiz dəfələrlə sovetlər dövrünün ali mükafatına layiq görülüb.

Məhz bu baxımdan o dövrdə pambıqçılıq əhalinin əsas gəlir mənbəyinə çevrilib, maddi rifah halının yüksəlməsində önəmli rolu olub. Hazırda kənd təsərrüfatında, eləcə də sənayedə strateji əhəmiyyətə malik pambıqçılığı inkişaf etdirmək günün əsas tələblərindəndir.

Bu istiqamətdə bir sıra işlər görülür. Hətta pambıqçılığın inkişafına dair Dövlət Proqramı qəbul olunub. Prezident İlham Əliyev pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramının təsdiqi ilə bağlı sərəncam verib.

**Proqramın icrası ilə bağlı silsilə işlər görülür. Buna baxmayaraq, ekspertlər pambıqçılığın inkişafı ilə bağlı görülən işlərin yetərli olmadığını düşünürlər. Qeyd olunur ki, ötən illərlə müqayisədə pambıq əkin sahələri azalıb. Kənd təsərrüfatı naziri İnam Kərimov da media nümayəndələrinə açıqlamasında pambıq əkin sahələrinin azalması haqqında məlumat verməmişdi. Nazir pambıq sahələrinin niyə azalmasının səbəblərini göstərməyib.**

Məlumat üçün bildirək ki, 2018-ci ildə pambıq əkini sahələri 132,5 min hektar olub. Bu, 2017-ci ilə nisbətən 2,5% azdır. Sahələrdən 232,2 min ton xam pambıq toplanıb. Bu, əvvəlki ilin göstəricisindən 11,9 faiz çoxdur.

**Pambıq əkin sahələrinin nə səbəbdən azalması barədə məlumat verən aqrar sahə üzrə ekspert Vahid Məhərrəmov bildirdi ki, bu sahə ilə bağlı qiymətləndirmə vaxtında düzgün aparılmayıb:** "Fermer, kəndli və büdcə təşkilatlarında fəaliyyət göstərənlərin bir qismi pambıq əkininə cəlb olundu. Onlar da məcburiyyət qarşısında qalıb, məhsuldar torpaqda deyil, istənilən sahədə əkin apardılar. Təbii ki, bu da məhsuldarlığın aşağı düşməsinə səbəb oldu.

Bu il isə 22 rayonun 11-də xam pambıq istehsalı ziyanla başa gəlib. 2018-ci ildə isə ölkənin 22 rayonunda pambıq əkini həyata keçirilib. Bu rayonların tən yarısında məhsuldarlıq 15 sentnerdən aşağı olub. Belə ki, hər hektardan orta məhsuldarlıq Zərdabda 14,9, Salyanda 14,5, Neftçalada 14,3, İmişlidə 13,3, Sabirabadda 13, Kürdəmirdə 12,9, Ağdaşda 12 sentner təşkil edib. Bəzi rayonlarda isə hər hektardan orta məhsuldarlıq 10 sentner səviyyəsinə də qalxmayıb. Füzuli rayonunda 9,8, Hacıqabul rayonunda 8,8, Ağsu rayonunda 7,4, Ucar rayonunda isə hər hektardan orta məhsuldarlıq 6,6 sentner təşkil edib.

Aparılan hesablamalar göstərir ki, xam pambıq istehsalı üçün çəkilən xərc hər hektar üçün min manat civarındadır. 2018-ci idə də məhsuldarlığın aşağı, alış qiymətinin ucuz olması minlərlə kəndlinin müflisləşməsinə səbəb olub".

**Həmsöhbətimiz hesab edir ki, pambıqçılığı pambıq sahələrini genişləndirməklə, ekstensiv yolla inkişaf etdirmək mümkün deyil. Məhsuldarlığı artırmaq üçün daha münbit torpaqlarda əkin aparmaq lazımdır. Belə olarsa, məhsulun keyfiyyəti yüksək olar: "Pambığın kəndli üçün gəlirli olmasına çalışmaq lazımdır".**

***Günel CƏLİLOVA***

---

**"Azərbaycan bu gün xarici sərmayələrin qoyuluşu üçün öz imkanlarını təqdim edir və bu, hər bir ölkə üçün çox önəmli məsələdir. Şadam ki, qeyri-neft sektoruna investorlar tərəfindən böyük maraq var. Burada əsas məsələ bürokratik əngəlləri aradan götürməkdir".**

# Bürokratik əngəllər Azərbaycana investisiya axınına ən böyük maneə kimi...

***Ruslan Atakişiyev:** "Qanunu pozanlara qarşı sərt tədbirlər görülməlidir"*



*"O zaman xarici sərmayədar sərbəst olacaq və ölkəyə sərmayə qoymaqda maraqlı olacaq"*

Bu fikirləri Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında deyib.

Ölkə başçısının fikrincə, sözügedən məsələdə bürokratik əngəllərə yol verməmək olmaz: "Biz potensial investoru cəlb etməliyik, investoru axtarmalıyıq, ona sübut etməliyik ki, Azərbaycana sərmayə qoysun. Ancaq bəzi hallarda hansısa yerli və ya xarici şirkət investisiya qoymaq istəyəndə onun qarşısında süni, bürokratik və digər əngəllər yaradılır. Bu, tamamilə qəbuledilməzdir, buna yol verməmək olmaz. İnvestisiyaların cəlb edilməsi hər bir ölkənin iqtisadi inkişafı üçün əsas şərtlərdən biridir. Azərbaycanda dövlət investisiyaları qoyulur və qoyulmalıdır. Ancaq biz çalışmalıyıq ki, özəl sektor daha da böyük həvəslə investisiyalar qoysun".

Prezident onu da qeyd edib ki, indi xaricdən investisiya, sərmayə qoymaq istəyənlərin sayı çoxalır: "Xarici sahibkarlar müraciət edirlər. Mənim bu yaxınlarda Çin Xalq Respublikasına etdiyim səfər çərçivəsində görüşdüyüm iri şirkətlərin rəhbərlərinin fikri də çox müsbətdir. Onlar da Azərbaycana sərmayə qoymaq üçün indi işlər aparırlar və böyük maraq göstərirlər".

Maraqlıdır, Azərbaycana daha çox xarici sərmayənin cəlbi ilə əlaqədar bürokratik əngəllərin aradan qaldırılması üçün bundan sonra hansı islahatlar aparıla bilər? Xarici sərmayənin cəlbi ilə bağlı qanunvericilikdə konkret nə kimi yeniliklər ola bilər?

**Məsələyə münasibət bildirən İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin direktoru Ruslan Atakişiyevin sözlərinə görə, bu sahədə qanunvericilik müvafiq normalara cavab verir, sadəcə bunun tətbiqi arzuolunan səviyyədə deyil:** "Fikrimcə, xarici sərmayənin cəlbi ilə əlaqədar və bürokratik əngəllərlə mübarizə məqsədilə qanunvericilikdə olan yeniliklər tətbiq oluna bilər. Mövcud qanunvericiliyn tətbiqinə önəm verilməlidir. Aparılan islahatlarla əlaqədar qanunlarımız bazar iqtisadiyyatı mexanizminin işləməsi üçün hardasa imkan yaradır. Sadəcə bunun tətbiqini genişləndirmək lazımdır. Qanunu pozanlara qarşı sərt tədbirlər görülməlidir. Xüsusən də səlahiyyətini aşanlara qarşı qanun çərçivəsində sərt addımlar atılmalıdır. O zaman xarici sərmayədar sərbəst olacaq və ölkəyə sərmayə qoymaqda maraqlı olacaq. Bürokratik əngəllər dedikdə əsasən söhbət süründürməçilikdən gedir. Lazım olan gərəkli sənədləri vaxtında əldə etmək olmur. Bu da, istər-istəməz, xarici investoru çəkindirir. Bəzi məmurlar bu məsələdə vəzifə səlahiyyətlərindən sui-istifadə edirlər. Nəinki xarici investorlar, daxili investorlar da bu problemlərdən əziyyət çəkirlər. Sərmayənin ölkəyə cəlbi üçün bütün maneələr minimuma endirilməlidir. Buna nail olmadan biz qeyri-neft sektoruna böyük həcmdə investisiya cəlb edə bilmərik. Ona görə də bütün mümkün vasitələri işə salmalıyıq. Rayonlarda bəzi icra başçıları xarici sərmayədarları təşviq etmək üçün addımlar atmırlar. Halbuki, investorlara geniş imkanlar yaradılmalıdır. Bu gün aparılan siyasət onu göstərir ki, Prezident ölkəyə böyük xarici sərmayə gəlişində maraqlıdır. Ancaq bəzi məmurlar, praktiki olaraq, buna münbit zəmin yaratmırlar. Qoyulacaq sərmayədən pay gözləyirlər ki, görək onlara bundan nə çatacaq. Bu kimi problemlər çıxır ortaya. Lisenziyalarla bağlı investorların problemləri olur. Hesab edirəm ki, bütün bunlara son qoyulmalıdır".

***Vidadi ORDAHALLI***

Əslən Göyçə mahalından olan Hüseyn Həsənovun 2002-ci ildə şəxsi büdcəsi hesabına Bakıdakı mənzilində yaratdığı Aşıq Ələsgər Muzeyinin hazırkı taleyi narahatlıq doğurur. Bu barədə muzeyin yaradıcısı olan 92 yaşlı Hüseyn Həsənov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya, mədəniyyət naziri Əbülfəs Qarayevə və digər rəsmi şəxslərə ünvanladığı müraciətdə bildirir.



*"Mədəniyyət Nazirliyindən mənə bildirdilər ki, Hüseyn Həsənovdan evində saxladığı materiallar alınıb və ona bunun müqabilində 40 min manat ödənilib"*

## Aşıq Ələsgər Muzeyinin yaradıcısı qəzetimiz vasitəsilə muzeyin bərpa edilməsi üçün ölkə başçısından kömək istəyir

# Aşıq Ələsgər Muzeyinin "əsir edilmiş" eksponatları - Mədəniyyət Nazirliyindən giley-güzar...

### *Məhərrəm Qasımlı: "Mənim o muzeyə nə maneçiliyim ola bilərdi ki?"*

H.Həsənov sözügedən müraciətin bir nüsxəsini də qəzetimizə ünvanlayıb. "2002-ci ildə öz 5 otaqlı mənzilimdə Aşıq Ələsgər adına muzey yaratdım. Bu muzey 2018-ci ilə qədər Azərbaycan aşıq sənətinin zirvəsi olan Dədə Ələsgərin adına layiq bir muzey kimi fəaliyyət göstərdi. Muzey Nərimanov rayonu, Atatürk prospekti, bina 37, mənzil 75-də fəaliyyət göstərirdi. Mən muzeyi yaratdıqdan 3 il sonra Mədəniyyət Nazirliyinə və digər rəsmi qurumlara bu barədə məlumat verdim. Məni qəbul etməsi üçün mədəniyyət nazirinə müraciət etdim və o, 2007-ci ildə mənimlə görüşdü. Mədəniyyət Nazirliyinun Musiqi Mədəniyyəti Muzeyindən Rəna və Təranə adlı iki əməkdaşını mənzilimdə yaratdığım muzeyin fəaliyyəti, burada olan eskponatlarla tanış olmaq üçün evimə göndərdilər. Onlar 20 gün ərzində muzeydə topladığım bütün eksponatları, əşyaları siyahıya aldılar və nazirliyə təqdim etdilər. Mədəniyyət Nazirliyindən mənə müraciət etdilər ki, muzeyi dövlətə sat. Nazirlik məndən almaq istədiyi eksponatlara, ümumilikdə, 38 min manat qiymət qoymuşdu. Mən də onlara cavab verdim ki, bu muzey xalq üçündür və mənim onu satmaq niyyətim yoxdur, siz muzeyin dövlət statusu almasına və bina ilə təmin olunmasına yardım edin".

H.Həsənov qeyd edir ki, muzeyə dövlət statusu verilməsi və ona ayrıca bina ayrılması ilə bağlı əlaqədar qurumlara etdiyi müraciətlər cavabsız qalıb. Mədəniyyət Nazirliyinin muzeyin fəaliyyət göstərməsi üçün heç bir dəstək vermədiyini deyən H.Həsənovun sözlərinə görə, muzey eksponatlarının, əşyalarının Azərbaycan Dövlət Musiqi Mədəniyyəti Muzeyində baxımsız qalması onu ciddi narahat edir. O, eksponatların ayrıca bir fondda yerləşdirilmədiyini də bildirir. Onun sözlərinə görə, nazirlik muzeyin eksponatları üçün ona 38 min manat pul ödəyib. Muzeyin yaradılmasına şəxsi büdcəsindən 75 min manat xərc çəkdiyini deyən H.Həsənovun yazdığına görə, 16 il ərzində 5 otaqlı mənzilini muzeyə həsr edib. "Mən bu muzeyi yaratmağa 75 min manat xərc çəkmişəm. Fəxr edirəm ki, belə bir muzey yaratmışam. Mən çəkdiyim xərci dövlətimizdən tələb etmirəm, bu vəsaiti şöhrətli adına bağışlayıram.

Mən eksponatlar, əşyalar satmamışam. Onu məndən təhvil alıb muzeyə apardılar və mənə 38 min manat pul ödədilər, həmin vəsaiti bank yolu ilə aldım. Mənim istəyim odur ki, həmin eksponatlar o muzeydə baxımsız vəziyyətdə qalmasın, Aşıq Ələsgər Muzeyi bərpa edilsin və ona dövlət statusu, ayrıca bina verilsin. Ümid edirəm ki, cənab Prezident 92 yaşlı bir ağsaqqalın arzusunun gerçəkləşdirilməsi üçün əlaqədar qurumlara tapşırıq verəcək".

H.Həsənov bildirir ki, muzeyin dövlət statusu almasına və ona bina ayrılmasına nazirliyin bəzi əməkdaşları, o cümlədən də Mədəniyyət Nazirliyinin aparat rəhbəri Fikrət Babayev və Aşıqlar Birliyinin sədri Məhərrəm Qasımlı mane olub.

" Mən eşitdim ki, çox hörmətli Prezidentimiz İlham Əliyev cənabları Tovuz aşıq mühitinin görkəmli nümayəndəsi Hüseyn Bozalqanlı adına aşıq muzeyinin yaraılmasına 3 milyon manat vəsait ayrılması ilə bağlı sərəncam imzalayıb. Mən bunun üçün cənab Prezidentə öz təşəkkürümü bildirirəm. Hüseyn Bozalqanlı da Azərbaycanın ustad aşıqlarından biri olub. Amma unutmaq olmaz ki, Aşıq Ələsgər də aşıq dünyasının sultanıdır, günəşidir. Aşıq dünyasında hələ aşıq Ələsgər zirvəsinə qalxan olmayıb" -deyə H.Həsənov qeyd edir.

H.Həsənovun səsləndirdiyi ittihamlarla bağlı Azərbaycan Aşıqlar Birliyinin sədri, **Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı ilə əlaqə saxladıq. M.Qasımlı "Bakı-Xəbər"ə açıqlamasında barəsində deyilənlərin həqiqətə uyğun olmadığını bildirdi.** "Azərbaycan Aşıqlar Birliyinin elə imkanı, yeri, şəraiti yoxdur ki, orada muzey yaratsın. Mənim o muzeyə maneçiliyim ola bilərdi ki? Mənim bu məsələ ilə heç bir əlaqəm yoxdur. Elə bir muzey yoxdur. Mədəniyyət Nazirliyindən mənə bildirdilər ki, H.Həsənovdan evində saxladığı materiallar alınıb və ona bunun müqabilində 40 min manat ödənilib. O materialların isə əsasən köhnə vallar və aşıqların şəkillərinin surətləri olduğu deyilir. O əşyalar hazırda Azərbaycan Dövlət Musiqi Mədəniyyəti Muzeyindədir".

Mədəniyyət Nazirliyindən və Azərbaycan Dövlət Musiqi Mədəniyyəti Muzeyindən isə H.Həsənovun səsləndirdiyi fikirlərlə bağlı məlumat ala bilmədik.

***İradə SARIYEVA***

---

Geniş auditoriyanı əhatə edən efir məkanında etik prinsiplərin pozulması qəbuledilməz hal olsa da, bəzi şou-biznes nümayəndələrinin bu qaydalara əməl etmədiyi göz önündədir. Efirdə söyüş işlədən, hətta ifa etdikləri mahnılara söyüş, təhqiramiz ifadə qatan, etikadankənar davranışlara yol verənlərin qanunla məhkəmə qarşısına çıxarılması cəmiyyətdə müsbət qarşılanır.



*Şahmar Məmmədov: "Mən bu barədə açıqlama verə bilmərəm"*

# Teleefirdə cəmiyyəti təhqir etdikləri bəs etmədi, üstəlik, məhkəməyə də saygısızlıq etdilər...

### *Rəşad İlyasovun vəkili danışmaqdan yayındı*

Söhbət aprelin 5-də "Space" televiziyasında efirə gedən "Hər səhər" verilişində nalayiq ifadələr işlədən müğənni Rüfət Axundovdan və Əməkdar artist Rəşad İlyasovdan gedir.

Onu da bildirək ki, Milli Televiziya və Radio Şurasının (MTRŞ) yaydığı məlumatda deyilirdi ki, əsasən R.Axundov mahnı oxuyarkən dəfələrlə qeyri-etik ifadələrdən istifadə edib. Kanal İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq, 5-8 min manat cərimə olunmasına dair protokol tərtib edib. Həmçinin, televiziya və radio rəhbərlərinə şifahi xəbərdarlıq edilərək ki, R.Axundovun efirə çıxmasına məhdudiyyət qoyulub.

Məlum olduğu kimi, mayın 1-də Yasamal Rayon Məhkəməsində "Space" televiziyasının efirində işlətdiyi nalayiq ifadələrə görə müğənni Rüfət Axundov və Rəşad İlyasova qarşı xüsusi ittiham qaydasında verilən şikayət üzrə məhkəmə iclası keçirilib. Hakim Hüseyn Səfərovun sədrliyi ilə keçirilən prosesə nə R.İlyasov, nə də R.Axundov gəlib. Onların məhkəmə prosesində iştirak etməməsi cəmiyyətdə ajiotaj yaradıb.

Xatırladaq ki, məhkəmə prosesində R.İlyasovun vəkili kimi Şahmar Məmmədov elan edilib.

Qeyd edək ki, xüsusi ittihamçı Rahim Sadıqlının nümayəndəsi çıxış edərək bildirib ki, işlədilən ifadələrə görə hər iki şəxsin cinayət məsuliyyətinə cəlb olunaraq 6 ay müddətinə azadlıqdan məhrum edilməsini tələb edib. Xüsusi ittihamçı R.Sadıqlı da vəkili ilə razı olduğunu söyləyib, müğənnilərin həbs edilməsini istəyib.

R.İlyasovun və R.Axundovun mayın 1-də keçirilən məhkəmə prosesində iştirak etməməsi müxtəlif suallar doğurur. Hər iki müğənninin xalqı təhqir etdiyi bəs deyil, məhkəməyə də saygısızlıq göstərməsi mənfi bir haldır.

R.İlyasovun vəkili Şahmar Məmmədovla əlaqə saxlayıb ondan hüquqlarını müdafiə etdiyi müğənninin hansı səbəbdən məhkəməyə gəlmədiyini öyrənmək istədik.

#### *"Siz, zəhmət olmasa, məhkəmə ilə əlaqə saxlayın"*

**Ş.Məmmədov "Bakı-Xəbər"ə bildirdi ki, o bu məsələ ilə bağlı KİV-ə heç bir açıqlama vermək istəmir.** "Mən bütün jurnalistlərə, kütləvi informasiya vasitələrinə hörmətlə yanaşıram. Üzrlü hesab edin, mən bu barədə açıqlama verə bilmərəm. Siz, zəhmət olmasa, məhkəmə ilə əlaqə saxlayın" - deyə Ş.Məmmədov bildirdi.

Vəkil R.İlyasovun məhkəmə prosesində iştirak etməməsinin səbəbinə aydınlıq gətirmək əvəzinə, açıqlama verməkdən imtina etdi və görməli olduğu işi məhkəmənin üzərinə atdı. Məhkəmə öz işini onsuz da görür. R.İlyasov və R.Axundovla bağlı ittiham qaydası üzrə ədalətli hökm çıxaracağını, əlbəttə, həmin müğənnilər tərəfindən təhqir olunan cəmiyyətimiz gözləyir. Vəkilin burada hüquqlarını müdafiə etdiyi şəxslə bağlı məsələyə niyə aydınlıq gətirməməsi isə sual olaraq qalır.

***İradə SARIYEVA***

# AMEA institutları elmdən nə vaxt pul qazanacaq?

## *İlqar Orucov: "Bu gün Akademiya, əslində, dövlət büdcəsi üçün bir yükdür"*

**Azərbaycanda elm sahəsi yalnız dövlət büdcəsindən ayrılan vəsait hesabına mövcudluğunu qoruya bilir. Dünyanın bir çox ölkələrində isə elm dövlət qayğısı ilə əhatə olunmayıb, bütün elmi qurumlar, mərkəzlər öz potensialları hesabına fəaliyyət göstərirlər.**

Məsələ burasındadır ki, həmin elmi mərkəzlərin elmi ixtiraları dünya sənayesinə, iqtisadiyyatına böyük fayda verir, bu elmi ixtiralar istehsalat sahəsində tətbiq edilir, həmin elmi qurumlara külli miqdarda vəsait qazandırır. Bu gün dünyanın bir sıra böyük elmi mərkəzləri var ki, onların ixtiraları, elmi nəticələri birbaşa dünyanın inkişafına müsbət təsir göstərir.

Bu gün Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) birbaşa dövlət büdcəsindən maliyyələşən qurumdur. Dövlətin AMEA-ya külli miqdarda vəsait ayırmasına baxmayaraq, bu quruma rəhbərlik edənlər iddia edirlər ki, elmə ayrılan vəsaitin həcmi qənaətbəxş deyil, dövlət pulu bir qədər də artırmalıdır. Halbuki, AMEA-nın əlaqədar institutları öz elmi ixtiraları ilə həm bu quruma, həm də dövlət büdcəsinə maliyyə vəsaitləri cəlb etməlidirlər. Sovet dövründə həm iqtisadiyyatda, həm kənd təsərrüfatında, həm istehsalatda, həm də digər sahələrdə elmin rolu, elmi yanaşma böyük pay sahibi idi. Elm bu sahələrdə yaxından iştirak etməklə Elmlər Akademiyasına, dövlət büdcəsinə maliyyə cəlb edirdi. Bu gün isə kiçik istisnaları nəzərə almasaq deyə bilərik ki, Azərbaycan Milli Elmlər Akademiyasına kənar vəsaitlərin cəlb edilməsi iflic vəziyyətdədir. Bu qurum, bütövlükdə, dövlət büdcəsindən ayrılan vəsait hesabına fəaliyyət göstərir, özü isə müxtəlif istiqamətlərdən müstəqil olaraq maliyyə cəlb etmək istəmir.

**Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov bizimlə söhbətində bildirdi ki, mövzu çox aktualdır və dövləti ciddi düşündürən məsələdir.** "Biz bu məsələni dəfələrlə müzakirə etmişik. Dövlət də bu sahədə həmişə sözünü deyib, arzularını ifadə edib. Ancaq təəssüflər olsun ki, biz buna nail ola bilməmişik. Bu gün Elmlər Akademiyası yalnız Azərbaycanda və postsovet ölkələrində mövcuddur. Dünyanın digər ölkələrində isə elmi mərkəzlər, elmi qurumlar fəaliyyət göstərirlər. Onlar Azərbaycan Milli Elmlər Akademiyası kimi dövlətin elmlə bağlı siyasətini həyata keçirən qurumlar deyillər. Xarici ölkələrdə, bütövlükdə, elm universitetlərdə və elmi mərkəzlərdədir. Elmin hansı qurumun nəzdində olması əsas deyil, əsas odur ki, elm olsun və maliyyə cəlb etsin. Azərbaycanda elmin pul qazanması və dövlət büdcəsindən asılılığının azaldılması məsələsi hər zaman müzakirə olunur. Bu hər zaman bizim ağrılı yerimiz olaraq qalır. Azərbaycanda dövlətin elm və elmi-texniki siyasətini Elmlər Akademiyası həyata keçirir. Milli Elmlər Akademiyası mərkəzi icra hakimiyyəti olmasa da, ali dövlət təşkilatı olaraq bu funksiyanı daşıyır. Azərbaycan Milli Elmlər Akademiyası, bütövlükdə, dövlət büdcəsindən asılıdır. Bu gün Elmlər Akademiyasının pul qazanmaq imkanı, biznesdə payı çox cüzidir, yaxud da heç yoxdur. Bu olduqca zərərlidir və elmi qurum müsir dünya ilə ayaqlaşa bilmir. Bunun da səbəblərindən biri odur ki, Akademiya dövlət büdcəsindən asılı vəziyyətdə qalıb, bu da Azərbaycan elminin dünya elmindən geridə qalması ilə nəticələnib. Bizdə iqtisadiyyatda elmin payı yoxdur, bilik iqtisadiyyatı sıfırdır. Bu problem də ki, əlbəttə, dövləti zaman-zaman düşündürür, qayğılandırır. Bu gün Akademiya, əslində, dövlət büdcəsi üçün bir yükdür. Ancaq elə sahələr var ki, məsələn, ictimai və humanitar sahələr, onlar bilavasitə dövlətin, dövlətçiliyin, xalqın maraqlarını qoruduğu, milli ideologiyamızı təbliğ etdiyi üçün, onların dövlət tərəfindən maliyyələşdirilməsi vacibdir. Amma fundamental elmlər, dəqiq elmlər sahəsində axsamağımız göz önündədir. İndi dəb düşüb ki, guya hansısa alimlərin beynəlxalq indeksli jurnallarda məqalələri çox çap olunur və bu bizim elmin göstəricisidir. Əslində isə elmin biznesdə, iqtisadiyyatda payı çox zəifdir. Bu da bilavasitə onu göstərir ki, Azərbaycanda elm hansı səviyyədədir. Azərbaycan Elmlər Akademiyasında vaxtilə məktəblər vardı və o məktəblər planlı şəkildə dövlət sifarişləri ilə işləyirdilər. Artıq o məktəblər sıradan çıxıb, görkəmli alimlər dünyasını dəyişib. Həmin məktəblər SSRİ kimi dövlətdə hərbi komplekslərlə bağlı sifarişləri yerinə yetirirdilər. Bu gün elmin dövlət büdcəsindən kənarda maliyyə cəlb etməsi, pul qazanması istiqamətində çox ciddi problemlər var. Dövlət həmişə öz arzusunu ifadə edir ki, elm dövlətdən asılı olmamalıdır. Elm tutumlu ölkələrdə elm dövlət büdcəsindən asılı deyil, elm pul qazanır, gəlir gətirir. Amerikada, Avropa ölkələrində, eləcə də digər xarici ölkələrdə iqtisadiyyatın formalaşmasında elm ciddi faktordur və bu sahədə böyük paya sahibdir, bu da həmin qurumların kənardan böyük məbləğ cəlb etməsinə səbəb olur. Bütün inkişaf etmiş ölkələrə baxanda görürük ki, həmin ölkələrin elmi qurumlarının dövlət büdcəsinin, ümumdaxili məhsulun formalaşmasında çox ciddi payı var. Onların da uğurunun əsasını məhz bu amil təşkil edir".



*"Elmlər Akademiyasının pul qazanmaq imkanı, biznesdə payı çox cüzidir, yaxud da heç yoxdur"*

*"Amerikada, Avropa ölkələrində, eləcə də digər xarici ölkələrdə iqtisadiyyatın formalaşmasında elm ciddi faktordur"*

Bir neçə il əvvəl Prezident İlham Əliyevin Milli Elmlər Akademiyasında çıxış etdiyini və alimlərə öz tövsiyələrini verdiyini xatırlayan İ.Orucovun sözlərinə görə, ölkə başçısı həmin görüşdə bildirib ki, inkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq, o ölkələrin uğurlu, parlaq gələcəyini təbii resurslar deyil, məhz intellektual resurslar, elm və texnologiyaların təşkil etdiyini görərik. "Əslində, bu, alimlərə, elm adamlarına, elmə rəhbərlik edən adamlara bir çağırış olmaqla bərabər, ölkə başçısının arzusunun ifadəsi idi. Prezidentimiz Azərbaycanı məhz bu cür görmək istəyir. Bu görüşdən üç il keçməsinə baxmayaraq, təəssüflər olsun ki, hələ bu məsələ gerçəkləşməyib. Elmlər Akademiyası deyir ki, biz yüksək texnologiyalar parkı yaratmışıq, amma biz bu parka baxanda onun istehsal etdiyi məhsullar nədir? Burada adi içməli su qablaşdırılır. Burada görülən işlər heç bu parkın adına uyğun deyildə. Yəni bu istiqamətdə çox ciddi problemlər var. Çox arzu edərdim ki, elmə məsul olan insanlar bu məsələlərin üstündə işləsinlər. Bu, əlbəttə, çətin bir prosesdir. Bunun üçün həm elmi kontingent formalaşmalıdır, eyni zamanda, biznes qurumları Akademiya ilə əməkdaşlıqda maraqlı olmalıdırlar.

Onlar elm müəssisələrinə sifarişlər verməlidirlər. Bu isə çox aşağı səviyyədədir. Bizim bəzi alimlərin tətbiqə yararlı işləri var və təəssüflər olsun ki, o işlərə sifarişlər yoxdur. Ona görə də bu, kompleks yanaşma tələb edir. Düşünürəm ki, bu istiqamətdə ciddi işlər görülməlidir" - deyə İ.Orucov qeyd etdi.

***İradə SARIYEVA***

№ 79 (3977) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

3 MAY 2019-cu il

## "Bakcell" "Facebook" üzərindən müraciətlərin cavablandırılmasında yüksək nəticə göstərib




**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" şirkətiabunəçilərin müraciətlərinin"Facebook" üzərindən effektiv cavablandırılmasına görə növbəti dəfə "SociallyDevoted" sertifikatı alıb.**

Böyük şirkətlərin sosial şəbəkələrdəki fəaliyyətinin monitorinqini həyata keçirən "Socialbakers" şirkəti 2019-cu ilin I rübündə daxil olan sorğuların "Bakcell" tərəfindən 100%-nicavablandırdığını qeyd edib.

"Bakcell" şirkəti son bir neçə ildə abunəçi müraciətlərini 100% cavablandıraraqən yüksək nəticəyə nail olub.

**Yüksək keyfiyyətli xidmətin göstərilməsi və müştəri məmnuniyyəti "Bakcell"in fəaliyyətinin prioritet istiqamətlərindəndir. Sosial şəbəkələr məhsul və xidmətlər haqqında məlumatların geniş abunəçi bazasına daha effektiv şəkildə çatdırılması və abunəçilərin suallarının cavablandırılması baxımından "Bakcell"in vacib kommunikasiya vasitələrindən biridir.**

## Elan

Azərbaycan Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı ərazi idarəsi tərəfindən Bakı şəhəri, Binəqədi rayonu, Naxçıvani küçəsi, ev 27, mənzil 97 ünvana dair Musayev Mehdi Nadir oğlunun adına verilmiş 1995-ci il tarixli qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Mehrəliyev Nüsrət Dadaş oğlunun adına, Qaradağ rayonu, Sahil qəsəbəsi, Bəxtiyar Əliyev küçəsi, ev 31 ünvanının orderi № 123627 itdiyi üçün etibarsız sayılır.

Abdullayeva Sevinc Elman qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Bayramov Ülvi Əhməd oğluna Bakı 1 nömrəli Tibb Kolleci tərəfindən verilmiş tələbə bileti və qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Xəlilov Sabit Səttar oğlunun adına, Kürdəmir rayonu, Şahbəyli kəndində yerləşən ünvana verilmiş dövlət aktı (JN -0995 kod 90603018) və torpaq sahəsinin plan və ölçüsü itdiyi üçün etibarsız sayılır.

Hacıyev Əli Abbas Gəncəli oğlunun adına, Bakı şəhəri, Yasamal rayonu, Ə.Abdullayev küçəsi, ev 32 A ünvanının çıxarışı (qeydiyyat vəsiqəsi) və texniki pasportu itdiyi üçün etibarsız sayılır.



## "Titanik"dən tapılan konyak qabı 76 min funt-sterlinqə satılıb

**"Titanik" gəmisində tapılan konyak qabı hərracda 76 min funt-sterlinqə satılıb.**

"AZƏRTAC" bildirir ki, Edvard Kentə məxsus olan qab Viltşayr şəhərində "Henry Aldridge & Son" şirkəti tərəfindən hərraca çıxarılıb. Qeyd edək ki, gəmi 1912-ci il aprelin 14-də Atlantik okeanında aysberqlə toqquşduqdan 2 saat 40 dəqiqə sonra batıb. Göyərtəsindəki 1316 sərnişin və 908 heyət üzvündən yalnız 705 nəfəri xilas ola bilib, 1514 nəfər həlak olub.

## "Azercell"in əsas tərəfdaş olduğu IV Buktreyler Festivalının qala gecəsi keçirilib

**Kitab və mütaliənin cəmiyyətimizdə təbliği, mütaliəyə münasibətin yaradıcı formalarının inkişafı və dəstəklənməsi, kino sahəsində istedadlı və yaradıcı gənclərin (rejissor, operator, rəssam, aktyor, qrimçi və s.) üzə çıxarılması, buktreylerlərin incəsənət və biznesdə bir istiqamət kimi inkişafı məqsədlərini daşıyan IV Buktreyler Festivalının qala gecəsi keçirilib.**

Hər zaman yenilikçi təşəbbüsləri dəstəkləyən "Azercell" şirkəti festivalın əsas tərəfdaşı qismində çıxış edib. Festivalın təşkilati dəstəkçiləri Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Beynəlxalq Muğam Mərkəzi, C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası, təsisçisi və direktoru isə kinoaktyor Ruslan Sabirlidir.Qeyd edək ki, qalib buktreylerlər tanınmış incəsənət xadimlərinin daxil olduğu münsiflər heyəti tərəfindən dəyərləndirilmə əsasında seçilib.

Tədbirdə çıxış edən "Azercell Telekom" MMC-nin Korporativ ünsiyyət şöbəsinin rəhbəri Nigar Şıxlinskaya rəqəmsallaşan dünyada kitabın ömrünün uzadılması, intellektual mədəniyyətin təbliği, mütaliənin, kitaba sevginin aşılanması kimi mühüm məqamların şirkət üçün böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb, bu tip təşəbbüslərin dəstəklənməsinin zəruri olmasını qeyd edib.

Qeyd edək ki, Elxan Elatlının "On dördüncü adam" romanına Sadiq Fərzəlibəylinin çəkdiyi buktreyler "Azercell" şirkəti tərəfindən "Ən Yaxşı Mobil Buktreyler" nominasiyası üzrə qalib seçilib və 1.000 AZN ilə mükafatlandırılıb. Qalib seçilən buktreyler və mükafatlar barədə ətraflı məlumatı https://www.booktrailer.az/ rəsmi internet səhifəsindən əldə etmək mümkündür.

Vurğulamaq istərdik ki, "Azercell" mütalıə mədəniyyətinin inkişafına, ədəbi irsimizin təbliğinə öz töhfəsini vermək üçün 2015-ci ildə Bookmate xidmətini abunəçilərin istifadəsinə təqdim edib. 850000-dən artıq kitabı özündə cəmləyən bu zəngin kitabxana mütaliəsevərlər arasında böyük rəğbətlə qarşılanıb. 2018-ci ildə isə "Azercell" tərəfindən Bookmate tətbiqi çərçivəsində kitabları səsli formatda dinləmək imkanı verən Audiokitab xidməti istifadəyə verilib. İlkin olaraq, klassik ədəbiyyat incilərimizin doğma dilimizdə səsləndirilərək, yer aldığı bu xidmətə gələcəkdə müsair ədəbiyyat nümunələrimiz də əlavə olunacaq.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.




**Qoç** - Sizdə xüsusi maraq oyatmayan işlərlə məşğul olmayın. Əgər nəyisə həvəssiz edirsinizsə, heç bir nəticə əldə etməyəcəksiniz. Maliyyə ilə bağlı hər bir məsələdə riskdən qaçın.


**Buğa** - Danışıqların aparılması üçün münasib gündür. İstənilən adamı əsəbləşdirmədən və ona heç bir təzyiq göstərmədən haqlı olduğunuza inandırmağa qadirsiniz. Xanım Buğaların diplomatik xüsusiyyətləri daha güclüdür.


**Əkizlər** - Enerjiniz çoxdur. Uzun müddət yolunuzu kəsən maneələri aşa, çoxdankı rəqiblərinizə üstün gələ bilərsiniz. Ancaq gücünüzü düzgün qiymətləndirib vaxtında dayanmağı da bacarasınız gərək.


**Xərçəng** - Yorulmaq bilmirsiniz, yeni işlərdən həvəslə yapışır, mürəkkəb məsələləri həll edirsiniz. Əgər qarşınızda hansısa məqsəd qoymusunuzsa, ona çatmaq üçün sizə heç nə mane ola bilməz.


**Şir** - Hərəkətlərinizdə ardıcıllığı gözləmirsiniz. Bu, ciddi uğursuzluqlara səbəb olmasa da, işlərinizdə güclü ləngimə yarada bilər. Başqalarının işlərinə qarışmamağa, sizə aidiyyatı olmayan mübahisələrə qoşulmamağa çalışın.


**Qız** - Şəxsi münasibətlərdə qarışıqlıqdan qaçın - hamıya şəraitin tam aydınlığı gərəkdir, ilk növbədə də sizə. Uğura güvənməyin: bu gün nəsə əldə etmək istəyirsinizsə, tər töküb zəhmət çəkməlisiniz.


**Tərəzi** - Məqsədlərinizə çatmaq üçün əziyyət çəkməli olmayacaqsınız. Yaxınlarınızla münasibətləriniz yaxşılaşmaq üzrədir. Sizin problemlərinizə laqeyd yanaşan insanlar bu gün yumşalıblar və sizə kömək etməyə hazırdırlar.


**Əqrəb** - Bir yerdə duruş gətirmirsiniz. Hərəkət etmək, iş görmək, həyatınızda nələrisə dəyişmək arzusundasınız. Ancaq o qədər də qərarlı deyilsiniz: çox xırda bir maneə sizi gördüyünüz işdən soyutmağa qadirdir.


**Oxatan** - Asan və xoş ünsiyyət bol olacaq. İşlərdə hansısa irəliləyiş olmasa da, gününüzü yaxşı keçirəcəksiniz. Həm özünüz, həm yaxınlarınız üçün əyləncələr fikirləşib tapırsınız, yanınızda olanların darıxmağa vaxtı olmur.


**Oğlaq** - Sakit şəraitdə istirahət etməyə çalışın. Ağır fiziki iş görməyiniz məsləhət deyil, uzun səfərlərdən, yorucu işlərdən çəkinin. Sağlamlaşdırıcı və profilaktik prosedurlardan keçməyiniz faydalı olar.


**Dolça** - Yeni, orijinal və ekstravaqant ideyalarınız çox olacaq. Bir çox işləriniz asanlıqla alınır, hərdən çətinliklər yaratsa da, bu sizi qorxutmur. Çox vacib bir işdən söhbət gedirsə, bütün gücünüzü toplayıb onun alınması üçün sərf edirsiniz.


**Balıqlar** - Sizi xeyli görüş və danışıqlar gözləyir. Bunların heç də hamısı xoş olmur. Şıltaq, tez özündən çıxan adamlarla söhbətdə təmkininizi qoruyub saxlaya bilirsiniz. Valideyn Balıqların başı uşaqlarının problemlərinə qarışacaq.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Dünyanın ən kiçik restoranı açılacaq



**İki il əvvəl məlum olmuşdu ki, dünyanın ən kiçik oteli Kopenhagendə yerləşir.**

Şəhərin Vesterbro rayonunda olan bu oteldə qonaqlara 2,3x3 metr ölçüləri olan cəmi bir otaq təklif olunur. İndi isə Danimarka paytaxtında dünyanın ən kiçik restoranı açılacaq. "AZƏRTAC" bildirir ki, bu həftədən başlayaraq "Restauranten 1:1" adlı restoran cəmi bir nəfərə iaşə xidməti göstərəcək. Cırtdan restoranın yaradılması təşəbbüsü baş aşpaz Uilyam Milsted və "Irma" supermarketinə məxsusdur. Təşəbbüskarlar bildiriblər ki, bu restoran yeməyin əhəmiyyətini vurğulayan intensiv həssas təcrübəsi ilə seçiləcək. Burada siz təkbaşına yemək yeyəcək və ətrafdakılar diqqətinizi yayındırmayacaq. Kiçik restoranda bir qonaq, ofisiant və aşpazdan başqa heç kim olmayacaq.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.